Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 172 (8195) CÜMƏ AXŞAMI, 8 avqust 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# Pirallahı rayonunda böyük quruculuq və abadlıq işləri aparılır

## Dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi daim diqqət mərkəzində saxlanılır





Avqustun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirallahı rayonunda olublar.

AZƏRTAC xəbər verir ki, Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülən işlər və rayonun perspektiv inkişafı ilə bağlı layihələr barədə məlumat verdi.

Sonra dövlət başçısı və birinci xanım Pirallahı Rayon İcra Hakimiyyəti üçün inşa edilən binada yaradılan şəraitlə tanış oldular.





Prezident İlham Əliyevin "Bakı şəhərinin Pirallahı rayonunda tikinti-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci ildə imzaladığı Sərəncama əsasən rayon icra hakimiyyəti üçün dördmərtəbəli bina inşa olunub. Binada operativ-idarəetmə, vətəndaşların qəbulu, iş otaqları, akt və konfrans zalları, kitabxana və digər zəruri otaqlar var. Bina bütün lazımi avadanlıq və sistemlərlə təchiz edilib. Otaqların hamısı müasir tələblər səviyyəsində qurulub.

Yeni binada yaradılan şərait ölkədə dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsinin daim diqqət mərkəzində olduğunu bir daha təsdiqləyir. Bundan başqa, müasir memarlıq üslubunda inşa olunan bu bina rayonun görkəminə də xüsusi gözəllik verir. Rayon icra hakimiyyəti üçün inşa olunan binanın ətrafında genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, fəvvarə quraşdırılıb, işıqlandırma sistemi yaradılıb, mindən çox ağac və gül-çiçək əkilib, yaşıllıq zolağı salınıb.

## Gənclər Mərkəzi istifadəyə verilib



Avqustun 7-də Pirallahı rayonunda yeni inşa olunmuş Gənclər Mərkəzi istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərkəzin açılışında iştirak ediblər.

Dövlət başçısı İlham Əliyev binanın rəmzi açılışını bildirən lenti kəsdi.




Gənclər Mərkəzinin üçmərtəbəli binasında Heydər Əliyev muzeyi fəaliyyət göstərir. Burada Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən eksponatlar nümayiş olunur. Mərkəzdə, eyni zamanda, akt zalı, elektron oxu və nikah zalları, robopark, rəsm, keramika-heykəltəraşlıq, fotostudiya, "bacarıqlı əllər" dərnəkləri və sərgi salonu yaradılıb. Burada gənclərin asudə vaxtının səmərəli təşkili, onların müxtəlif peşə və sənətə yiyələnməsi məsələsinə xüsusi önəm veriləcək.

Azərbaycanda gənclər siyasətinin formalaşdırılması, yeni inkişaf mərhələsinə qədəm qoyması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizdə gənclər siyasəti 2003-cü ildən sonra yeni müstəvidə davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilməkdə olan "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı bu baxımdan çox mühüm rol oynayır.

# 6 milyard dollar sərmayə, 3 min çeşiddə məhsul ixracı...

### Şahin MUSTAFAYEV: "Azərbaycanın artan potensialı ixracyönümlü qeyri-neft sektorunun inkişafına böyük imkanlar açır"

Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan bu gün dayanıqlı inkişaf yolu ilə gedir. Ölkənin innovasiyayönümlü, yüksək rəqabətqabiliyyətli istehsala əsaslanan iqtisadiyyatı keyfiyyətcə yeni mərhələyə yüksəlib və Azərbaycan dünyanın iqtisadi cəhətdən dinamik inkişaf edən dövləti imicini qazanıb.

Ötən ildə olduğu kimi, bu il də həyata keçirilən böyük islahatlar ölkəyə həm siyasi, həm də iqtisadi dividentlər qazandırır. Dünyada "ən islahatçı ölkə" kimi tanınan Azərbaycanın builki iqtisadi göstəriciləri onu deməyə əsas verir ki, ölkəmiz müəyyən edilən hədəflərə doğru inamla irəliləyir. Həyata keçirilən islahatlar nəticəsində ölkəmizin valyuta ehtiyatlarının 4 milyard manat artaraq 49 milyarda yüksəlişi və digər iqtisadi göstəricilər bunu təsdiqləyir.

### Yüksəlişin təzahürü

Son 7 ayda ölkə iqtisadiyyatı 2,4 faiz, qeyri-neft sektoru 3,2 faiz, qeyri-neft sənayesi 15,7 faiz, kənd təsərrüfatı 13 faiz, qeyri-neft ixracı 15 faiz və ticarət dövriyyəsinin 20 faizdən çox artması, iqtisadiyyata 6 milyard dollardan çox sərmayə yatırılması yüksəlişin təzahürüdür.

*Ardı 3-cü səh.*




# Azərbaycan XİN: Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsində anneksiya siyasəti apardığını etiraf edir

Ermənistanın baş naziri Nikol Paşinyanın ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ bölgəsinin Xankəndi şəhərinə qanunsuz səfəri zamanı səsləndirdiyi təxribatçı fikirləri ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatına Ermənistan Xarici İşlər Nazirliyi kifayət qədər xaotik və məntiqi izahı olmayan cavab verib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsi Ermənistan XİN-in bu cavabını şərh edib.

Şərhdə deyilir: "Hesab edirik ki, Ermənistanın Xarici İşlər Nazirliyi Azərbaycana qarşı silahlı təcavüz həyata keçirərək ölkəmizin Dağlıq Qarabağ və ətraf bölgələrini qanunsuz güc tətbiqi ilə işğal edən, bu ərazilərdəki azərbaycanlı əhaliyə qarşı tam etnik təmizləməni həyata keçirən və Xocalı şəhərində soyqırımı aktı törədən bir ölkənin Azərbaycanı sivil normalara və ədəb-ərkana riayət etməməkdə, habelə dözümsüzlükdə ittiham edə biləcək subyektləri sırasında ən sonuncudur.

Üstəlik, Ermənistan XİN Azərbaycan hökumətini N.Paşinyanın Xankəndidə Ermənistan, Qarabağ və diaspor üçün "birlik, həmrəylik, inkişaf və tərəqqi" mövzusunda etdiyi çıxışının mahiyyətini və məzmununu başa düşməməkdə inandırmağa çalışır. Bu ölkənin baş nazirinin arxasınca, "nəcib niyyətini" oxşar və yöndəmsiz şəkildə izah edən Ermənistan XİN faktiki olaraq, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinə münasibətdə rəsmi Ermənistan tərəfindən anneksiya siyasətinin aparıldığını etiraf edir.

Ermənistan tərəfinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzrə ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinin məntiqinə xələl gətirən belə bir qeyri-adekvat yanaşmanı nümayiş etdirməsi regional gərginliyə səbəb olur və bunun məsuliyyəti bütünlüklə Ermənistanın üzərinə düşür. Ermənistan XİN-in başa düşməkdə çətinlik çəkdiyi, Azərbaycan Xarici İşlər Nazirliyinin 6 avqust tarixli kifayət qədər aydın bəyanatında məhz bu fikirlər qeyd edilir.

# Xankəndidə etiraz aksiyaları keçirilir

### Ermənistan rəhbərliyinin təcavüzkar və qəbuledilməz Dağlıq Qarabağ siyasəti isə danışıqları pozmağa yönəlib

Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə çözümünə çalışsa da, Ermənistanın son addımları, xüsusən də baş naziri Nikol Paşinyanın bu günlərdə Xankəndidə çıxışında Yerevanın Dağlıq Qarabağa dair danışıqlarda yürütdüyü diplomatiyanın yekun məqsədi "miatsumdur" (birləşmək) deməsi və münaqişənin nizamlanmasına dair istənilən qərar ancaq Ermənistan və Dağlıq Qarabağ əhalisinin ümumxalq dəstəyi ilə qəbul oluna bilər söyləməsi münaqişənin hərbi həllini bu gedişlə qaçılmaz edəcək.

Yerevan rəsmilərinin, o cümlədən baş nazir Nikol Paşinyanın sözdə bir şey deyib, əməldə başqa addımlar atması hadisələrin məhz bu istiqamətdə inkişafını zəruri edir.

Bu gün dünya birliyi birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyünü tanıyaraq Ermənistan silahlı qüvvələrinin işğal altındakı ərazilərdən çıxmasını tələb edir. Bununla bağlı müxtəlif beynəlxalq qurumlar tərəfindən çoxsaylı qərarlar, qətnamələr, eləcə də digər sənədlər qəbul edilib. Amma Ermənistan hələ də beynəlxalq hüquqa hörmətsizlik göstərərək həmin sənədlərdə qoyulan tələbi yerinə yetirməkdən imtina edir.

Azərbaycan tərəfi məsələni kifayət qədər konkret və sərt şəkildə qoyub. Bakının mövqeyi bundan ibarətdir ki, Ermənistanın mövcud rəhbərliyinin təcavüzkar və qəbuledilməz Dağlıq Qarabağ siyasəti danışıqları pozmağa yönəlib.

*Ardı 4-cü səh.*



# Pirallahı rayonunda böyük quruculuq və abadlıq işləri aparılır

## YAP Pirallahı Rayon Təşkilatının yeni inzibati binasının açılışı olub

Avqustun 7-də YAP Pirallahı Rayon Təşkilatının yeni inzibati binasının açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlət başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Yeni Azərbaycan Partiyası Pirallahı Rayon Təşkilatı üçün ikimərtəbəli müasir bina inşa olunub. Burada partiya təmsilçilərinin səmərəli fəaliyyəti üçün hərtərəfli imkanlar yaradılıb.

Yeni Azərbaycan Partiyası ölkəmizin bugünkü sürətli inkişafında, respublikanın beynəlxalq nüfuzunun artmasında və bütün sahələrdə əldə olunan tərəqqidə xüsusi





rol oynayır. Azərbaycanın əsas və aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası bütün bu uğurların qazanılmasında yaxından iştirak etməklə xalqın partiyası olduğunu aydın nümayiş etdirir. Bu da Ulu Öndər Heydər Əliyevin "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" fikrinin real həyatda təsdiqini tapdığını bir daha göstərir.

Partiyanın uğurlu fəaliyyətində onun rayon təşkilatlarının da rolu böyükdür. Yeni Azərbaycan Partiyasının rayon təşkilatları üçün bütün bölgələrdə inşa olunan inzibati binalar müasirliyi ilə seçilir, həmçinin şəhər və rayonların gözəlliyinə əlavə rəng qatır.

## Əhaliyə xidmət göstərən müasir layihələrin icrası həyata keçirilən sosial-iqtisadi siyasətin real nəticəsidir

Avqustun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirallahı rayonunda yeni inşa olunmuş "Mirvari" Park Kompleksində yaradılan şəraitlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, beş hektar sahəsi olan kompleksdə uşaqlar üçün minifutbol və iki oyun meydançası, müxtəlif attraksionlar, yelləncəklər, idman qurğuları, söhbətgahlar və fəvvarə quraşdırılıb. Müasir işıqlandırma sistemi ilə təchiz olunan bu istirahət guşəsində, eyni zamanda, müxtəlif tədbirlərin keçirilməsi üçün səhnə də inşa edilib.

Dövlət başçısı və birinci xanım parkda Qarabağ müharibəsi əlillərinin "ASAN xidmət"in "Ailə Biznesinə Asan Dəstək" proqramı çərçivəsində nümayiş etdirilən rəsm əsərlərindən və müxtəlif səpkidə dekorativ əl işlərindən ibarət sərgiyə baxdılar.

İstirahət məkanında "Ahılların Günərzi Mərkəzi" də fəaliyyət göstərir. Mərkəz Prezident İlham Əliyevin "Xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin genişləndirilməsi üçün əlavə tədbirlər haqqında" 2019-cu ilin iyun ayında imzaladığı sərəncama əsasən yaradılıb. Burada hər gün sosial yardıma ehtiyacı olan 50 ahıla növbəlilik əsasında pulsuz xidmət göstəriləcək.

Son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin miqyası daha da genişlənib. Bu tədbirlərin tərkib hissəsi olaraq yeni parkların yaradılması, mövcud istirahət məkanlarının isə müasir səviyyədə yenidən qurulması geniş vüsət alıb. Bu işlər paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahətinin hərtərəfli təşkili baxımından böyük rol oynayır. Bütün bunlar, eyni zamanda, Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirib. Bunu istər paytaxt sakinləri, istərsə də şəhərimizin qonaqları dəfələrlə vurğulayırlar. Əhaliyə xidmət göstərən bu kimi müasir layihələrin icrası son illərdə dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin real nəticəsidir.

Sonra dövlət başçısı və birinci xanım "Mirvari" Park Kompleksində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdülər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ictimaiyyət nümayəndələrini salamladılar.

**Sakinlər:** Xoş gəlmisiniz, cənab Prezident, hörmətli Mehriban xanım. Səfa gətirmisiniz, həmişə Siz gələsiniz.

**Prezident İlham Əliyev:** Sağ olun.





**Mehriban Əliyeva:** Xoş gördük, sizi görməyimizə çox şadıq, çox sağ olun.

**Sakin:** Cənab Prezident, biz Pirallahı rayonunun ağsaqqalları Sizə, Mehriban xanıma bir daha xoş gəlmisiniz deyirik. Bu gün Pirallahı qəsəbəsi, Pirallahı rayonu, demək olar ki, Bakı şəhərinin ən qabaqcıl rayonlarından biridir. Görülmüş bütün bu işlərə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Bütün bu abadlıq işləri Sizin sayənizdə görülüb.

**Sakin:** Sizə, Mehriban xanıma möhkəm cansağlığı arzulayırıq.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Bir neçə gün bundan əvvəl Siz qaçqınlarla görüşə gəlmişdiniz. Bu gün də, cənab Prezident, Pirallahıda bizimlə görüşürsünüz. Sizə dərin minnətdarlığımızı bildiririk. Burada böyük abadlıq işləri görülür, qəzalı binalar çoxdur, 400-ə yaxındır, indi Sizin sayənizdə tikinti gedir. Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun. Rayonun inkişafına diqqət göstərilir. Son illərdə böyük quruculuq-abadlıq işləri aparılmışdır. Rayonun siması dəyişib və bu gün dediyiniz kimi, Bakının ən qabaqcıl rayonlarından biridir. Burada infrastruktur layihələri icra edilir, içməli su layihəsi iki il bundan əvvəl öz həllini tapdı, qazlaşma ilə bağlı bütün məsələlər öz həllini tapdı. İş yerləri yaradılır, burada dərman zavodu tikilir, şpris zavodunun açılışı bir qədər bundan əvvəl reallığa çevrildi. Yəni, bu, onu göstərir ki, biz həm iş yerlərinin yaradılması istiqamətində uğurlara nail oluruq, həm də abadlıq işləri aparılır. Məcburi köçkünlər üçün yeni evlər istifadəyə verilib, 300-dən çox ailə orada məskunlaşır. İnzibati binalar, yollar tikilir. Yəni, rayonun hərtərəfli inkişafı üçün böyük işlər görülür və bundan sonra da görüləcəkdir. İş yerlərinin yaradılması da daim gündəlikdə duran məsələlərdən biridir və balıqyetişdirmə zavodunun fəaliyyətə başlaması da, hesab edirəm ki, çox önəmli hadisədir. Əlbəttə, ictimai zonalar, parklar salınır, vətəndaşlar üçün, istirahət etmək üçün gözəl imkanlar var.

**Sakinlər:** Çox sağ olun, var olun.

**Veteran idmançı:** Mən də bir veteran idmançı, dünya çempionu kimi idmançılar adından Mehriban xanıma böyük təşəkkür edirəm. Sizə cansağlığı arzulayıram. Mənim ayağım protezdir, mənə kömək etdiniz, çox sağ olun.

**Mehriban Əliyeva:** Sağ olun. Sizə cansağlığı arzulayıram.

**Veteran idmançı:** Bu gün mənə idmanla məşğul olmaqda kömək edirlər, arxamda dayanırlar, dəstək olurlar, yarışlar keçiririk. Mən də bir veteran idmançı kimi Sizə cansağlığı arzulayıram, bizim Pirallahıya xoş gəlmisiniz. Biz vətənimizə xidmət etməyə həmişə hazırıq.

**Veteran neftçi:** Mən də bir veteran neftçi kimi, əziz Prezident, əziz vitse-prezident, Sizə möhkəm cansağlığı, uğurlar arzulayıram. Dediyiniz kimi, Sizin siyasətinizin ana xəttini, doğrudan da, biz təşkil edirik, Azərbaycan xalqı təşkil edir. Bu işdə Sizə yeni-yeni uğurlar arzulayıram. Tanrı Sizi qorusun!

**Prezident İlham Əliyev:** Çox sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

## Qəzalı evlərin sakinləri üçün inşa olunan yaşayış kompleksində üç binanın tikintisi başa çatıb

Avqustun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirallahı rayonunda qəzalı binaların sakinləri üçün inşa edilən kompleksə gələrək binalardakı mənzillərdə yaradılan şəraitlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin "Bakı şəhərinin Pirallahı rayonunda tikinti-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci ildə imzaladığı Sərəncama uyğun olaraq müvafiq komissiya tərəfindən rayon ərazisində qeydiyyata alınmış 369 qəzalı binada yaşayan 5181 nəfərdən ibarət 1510 ailənin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yeni yaşayış kompleksi inşa olunur. Rayon mərkəzində ayrılmış 6,5 hektar ərazidə yerləşən kompleks 28 çoxmərtəbəli, 807 mənzilli binadan ibarət olacaq. Hazırda kompleksdə 114 mənzildən ibarət üç binanın tikintisi başa çatıb. Kompleksə daxil olan digər binalarda isə tikinti-quraşdırma işləri davam etdirilir. Tikintidə 200 nəfər işlə təmin olunub. Kompleksə 340 şagird yerlik məktəb binası, 120 yerlik iki uşaq





bağçası, üç idman meydançası və velosiped zolağı daxildir. Ərazidə genişmiqyaslı abadlıq-quruculuq işləri aparılıb, yaşıllıqlar salınıb.

Bu layihənin icrası bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının sosial məsələlərinin həlli, onun rifahının, o cümlədən mənzil-məişət şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzindədir.

## "NərəMİZ" balıqyetişdirmə zavodunun istifadəyə verilməsi idxalı əvəzləyəcək məhsulların istehsalı baxımından mühüm əhəmiyyətə malikdir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 7-də Pirallahı rayonunda "Nərəkənd" balıqyetişdirmə kompleksi layihəsi çərçivəsində yaradılan "NərəMİZ" balıqyetişdirmə zavodunun istehsalat prosesi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, "CMS Properties" şirkətinin rəhbəri Eyvaz Eyvazov dövlət başçısına və birinci xanıma müəssisə haqqında məlumat verdi. Pirallahı adasının girişində təməli Prezident İlham Əliyev tərəfindən 2017-ci ildə qoyulan kompleksin qapalı tipli istehsal sexləri inşa olunub. Ümumi sahəsi altı hektar olan bu müəssisənin ilkin mərhələsində illik istehsal gücü 100 ton nərə, 25 ton çökə əti və 4 ton qara kürüdən ibarət olacaq. Burada 30 iş yerinin açılması nəzərdə tutulur və perspektivdə onların sayı 70-ə çatdırılacaq. Kompleks çərçivəsində açıq tipli ferma, mehmanxana, yaxt-klub və kotteclər də layihələndirilib.

"NərəMİZ" balıqyetişdirmə zavodunda müasir texnologiyalarla suyun təkrar dövriyyəsini təmin edən qapalı tipli fermanın inşası tamamlanıb. Qapalı sistemdə suyun təkrar dövriyyəsini təmin edən texnoloji proses nərə balığı istehsalının təbii faktorların təsirindən qorunmasına və yetişdirmə templərinin artmasına imkan yaradır. Burada yetişdirilən nərə balığı inkubasiya olunmuş yumurta mərhələsindən etibarən təxminən 2 il müddətinə 5 kiloqram əmtəə çəkisinə çatdırılır. Layihənin növbəti mərhələsində dənizdə qəfəs təsərrüfatının qurulması nəzərdə tutulur. Hazırda münasib yerin seçilməsi üçün ölçmə-axtarış işləri aparılır. Nəticədə ümumi illik istehsalat həcminin 200 ton balığa və 20 ton kürüyə çatdırılması planlaşdırılır. Kompleksin fermalarında yetişdirilmiş, habelə balıqçıların dənizdə tutduğu balığın mərkəzləşdirilmiş qaydada və zəruri normativlərə uyğun satışının təşkili məqsədilə zəruri şərait yaradılıb, balıq bazarı inşa olunub.

Layihə çərçivəsində ərazinin yaşıllaşdırılması və əhalinin istirahəti üçün şəraitin yaradılması məqsədilə kompleksin ətrafındakı sahil zonası abadlaşdırılıb və ərazidə müasir park salınıb.

Bu layihənin icrası ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafı, o cümlədən idxalı əvəzləyəcək məhsulların istehsalı baxımından mühüm əhəmiyyətə malikdir. Son illərdə aparılan iqtisadi islahatlar nəticəsində qeyri-neft sahəsində mühüm nailiyyətlər əldə olunub, bu sektorun ümumi daxili məhsulda xüsusi çəkisi artıb, rəqabətqabiliyyətli malların istehsalı genişlənib.

# 6 milyard dollar sərmayə, 3 min çeşiddə məhsul ixracı...

## Şahin MUSTAFAYEV: “Azərbaycanın artan potensialı ixracyönümlü qeyri-neft sektorunun inkişafına böyük imkanlar açır”

*Əvvəli 1-ci səh.*



Bu günlərdə İqtisadiyyat naziri Şahin Mustafayev mətbuata müsahibəsində ölkəmizdə iqtisadi yüksəlişi dəyərləndirərkən qeyd edib ki, bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın şaxələndirilməsi, rəqabətqabiliyyətli qeyri-neft məhsulları istehsalının və ixracının stimullaşdırılması, daxili tələbatın yerli istehsal hesabına təmin edilməsi istiqamətində görülən kompleks işlər sayəsində reallığa çevrilib. Nazir iqtisadiyyatın neftdən asılılığının azaldılmasının, qeyri-neft sektorunun davamlı inkişafının Prezident İlham Əliyevin iqtisadi siyasətinin mərkəzində duran əsas hədəflərdən olduğunu söyləyib.

Dövlət başçısının müəyyən etdiyi strateji xəttə uyğun olaraq biznes və investisiya mühitinin davamlı surətdə yaxşılaşdırılması, biznesə yeni dəstək mexanizmlərinin tətbiqi və digər istiqamətlərdə mühüm tədbirlərin həyata keçirildiyini deyən Şahin Mustafayev bildirib ki, hər il sahibkarlığa dövlət dəstəyinin sferası və coğrafiyası genişləndirilir və bu kursa uyğun olaraq lisenziyalaşdırmanın sadələşdirilməsi, sahibkarlıq sahəsində yoxlamaların dayandırılması, investisiyaların və ixracın təşviqi mexanizmlərinin tətbiqi, güzəştli kreditləşmə faizinin aşağı salınması, vergi, gömrük, sosial ödənişlər sisteminin təkmilləşdirilməsi özəl sektorun iqtisadiyyatda payını daha da artırıb. Əgər 2018-ci ildə sənayedə özəl sektorun payı 83,2 faiz idisə, təkcə cari ilin birinci yarısında bu rəqəm 82,5 faiz olub.

### Sənaye parklarında 40-dan çox rezident qeydiyyata alınıb

Əlbəttə ki, bütün bunlar qeyri-neft sektorunun inkişafında mühüm önəm kəsb edir. Bu sektorun əsas sahələrindən olan sənayenin inkişafı istiqamətində aparılan sistemli işlərin nəticəsi olaraq ölkədə yeni sənaye müəssisələri açılır, mövcud müəssisələrin istehsal gücü artırılır, hazırda bir sıra sənaye obyektlərinin tikintisi davam etdirilir. Azərbaycan sənayesi həm texnoloji, həm də innovativ baxımdan inkişaf edir, yeni sənaye sahələri yaradılır. Nazir vurğulayıb ki, indiyədək Azərbaycanda fəaliyyət göstərən sənaye parklarında 40-dan çox rezident qeydiyyata alınıb. Bu rezidentlərin 24-ü artıq istehsal fəaliyyətinə başlayıb. Bu il daha 10 rezident istehsala başlayacaq. İstehlak səbətini təşkil edən məhsulların istehsalında əhəmiyyətli irəliləyiş əldə olunub, özünütəminetmə səviyyəsi yüksəlib, idxaldan asılılıq azalıb. Bu ilin birinci yarısında qida məhsullarının istehsalı 20 faiz artıb: “Azərbaycanın artan potensialı istehsalın və ixracın genişləndirilməsinə, xarici ticarətin strukturunun şaxələndirilməsinə, rəqabətqabiliyyətli və ixracyönümlü qeyri-neft sektorunun inkişafına böyük imkanlar açır”.

Ölkəmizin sənaye parklarında indiyədək 1,5 milyard manatlıq məhsul istehsal edilib. Bu məhsulların 300 milyon manatlıq hissəsi xarici ölkələrə ixrac olunub. Sevindirici haldır ki, bu günlərdə Balaxanı Sənaye Parkının rezidenti istehsal etdiyi mebel məhsullarının ABŞ-a ixracına başlayıb.

Sənayedə kiçik və orta sahibkarlığın rolunun artırılmasında əlverişli mexanizmlərdən biri də sənaye məhəllələridir. Artıq regionlarda dövlət tərəfindən sahibkarlar üçün bütün zəruri infrastrukturla təmin olunmuş 4 sənaye məhəlləsi yaradılıb və 38 iştirakçı qeydiyyatdan keçib. Bu rezidentlərdən hazırda 21-i fəaliyyət göstərir. Belə məhəllələrin digər rayonlarda yaradılması istiqamətində işlər davam etdirilir. Fəaliyyətdə olan 2 sənaye məhəlləsinin iştirakçıları tərəfindən 41 milyon manatlıqdan çox, o cümlədən bu ilin birinci yarısında 14,5 milyon manatlıq məhsul istehsal olunub. Ümumilikdə ölkəmizdə yaradılmış sənaye parklarında və məhəllələrində 11 mindən çox iş yeri açılıb və daha 3 minə yaxın iş yerinin açılması nəzərdə tutulur.

### İxrac olunan qeyri-neft məhsullarının çeşidi 3 mini ötüb

Prezident İlham Əliyev iyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı keçirdiyi müşavirədə biznes mühitinin yaxşılaşdırılması məsələsinə toxunaraq görülən işlərin real nəticələri barədə məlumat vermişdi: “Biznes mühitinin yaxşılaşdırılması istiqamətində aparılan işlər bunu göstərir ki, bu gün iqtisadi sahədə Azərbaycan dünya miqyasında uğurla inkişaf edən ölkələr sırasındadır. Bununla paralel olaraq, biz sosial sahəyə də çox böyük diqqət göstəririk. Bu il reallaşan layihələr - milyardlarla dollar həcmində ölçülən bu layihələr, bu təşəbbüslər bizim niyyətimizi, bizim siyasətimizi göstərir”.

Hələ illər öncə qeyri-neft sektorunun davamlı inkişafı ilə bağlı cənab İlham Əliyevin irəli sürdüyü təşəbbüslərin artıq reallığa çevrilməsi Azərbaycanın xarici ticarət tərəfdaşlarının sayını da ildən-ilə artırır.

İqtisadiyyat naziri vurğulayıb ki, son 3 il ərzində qeyri-neft ixracı ümumilikdə 36,5 faiz artaraq 1,7 milyard dolları təşkil edib. Azərbaycan 167 yeni növ məhsulun ixracına başlayıb, ixrac olunan qeyri-neft məhsullarının çeşidi 3 mini ötüb. Qeyri-neft ixracında isə 452 milyon dollarlıq artımın 60 milyon dollarlıq hissəsi yeni məhsulların ixracı hesabına formalaşıb.

Bütün bu uğurlu göstəriciləri şərtləndirən amil əlbəttə ki, ölkədə sahibkarlara, investorlara yaradılmış şəraitdir. Dövlət iş adamlarına güzəştli kreditlər verməklə onlara hər cür dəstək göstərir. Bu ilin 6 ayında sahibkarlara artıq 50 milyon manat kredit verilib. Bu məsələyə toxunan iqtisadiyyat naziri də ixracın şaxələndirilməsi ilə yanaşı, sahibkarlara yaradılmış imkanların xarici ticarətlə məşğul olan biznes subyektlərinin sayında əhəmiyyətli artıma gətirib çıxardığını söyləyib. Bu da həqiqətən artan iqtisadi fəallığın və şəffaflığın əyani göstəricisidir.

2019-cu ilin altı ayında qeyri-neft ixracı 15 faiz səviyyəsində artaraq 980 milyon dollar təşkil edib, ticarət tərəfdaşlarının, mal çeşidlərinin və ticarət iştirakçısı olan biznes subyektlərinin sayında artım qeydə alınıb: “İstehsalın təşviqi istiqamətində görülmüş işlər ixracın artımı ilə nəticələnir. Belə ki, sahibkarlığın güzəştli kreditləşdirilməsi, istehsalatda müasir texnologiyaların tətbiqi digər sahələrlə yanaşı, aqrar sahədə də ixrac imkanlarını genişləndirir. Yeri gəlmişkən, bu ilin birinci yarısında ümumilikdə 440 milyon dollarlıq meyvə-tərəvəz və onların emalı məhsulları, pambıq, süd məhsulları, ipək, tütün kimi kənd təsərrüfatı məhsulları ixrac edilib. Ümumilikdə isə bu ilin ilk yarısında qeyri-neft ixracının 51 faizini kənd təsərrüfatı və emalı, 49 faizini isə sənaye məhsulları təşkil edib” deyə nazir qeyd edib.

### İlin sonunadək 11 aqroparkın fəaliyyətə başlaması gözlənilir

Hazırda ölkəmizdə regionların sosial iqtisadi inkişafı ilə bağlı dördüncü dövlət proqramı icra olunur. Həyata keçirilən layihələr regionlarda iş yerlərinin açılmasında və məşğulluğun təmin olunmasında əhəmiyyətli rol oynayır.

Sənaye park və məhəllələri ilə yanaşı, regionlarda aqrar sektorun inkişafı istiqamətində inşa olunan aqroparklar da ixracyönümlü məhsulların istehsalında əhəmiyyətli rol oynayır. Ölkədə 51 aqroparkın yaradılması ilə bağlı ciddi addımlar atılır. Artıq 22 aqropark fəaliyyətdədir. Şahin Mustafayevin sözlərinə görə, bu ilin sonuna qədər 11 aqroparkın fəaliyyətə başlaması gözlənilir. Bu layihələrin icrası nəticəsində 4 mindən çox yeni iş yerinin açılması proqnozlaşdırılır.

Bunlarla yanaşı, mütərəqqi metod kimi investisiya təşviqi mexanizminin tətbiqi də qeyd edilməlidir. Ölkədə idxalı əvəz edən və ixracyönümlü sənayenin inkişafı, bu sahəyə investisiyaların cəlb edilməsinin stimullaşdırılması məqsədilə bugünədək 400-ə yaxın layihəyə investisiya təşviqi sənədi verilib, bu layihələr çərçivəsində ölkə iqtisadiyyatına 3,4 milyard manat investisiya yatırılıb və 16 mindən çox iş yeri yaradılıb.

Beləliklə, həyata keçirilən ardıcıl tədbirlər nəticəsində ölkə iqtisadiyyatında sənayeləşmə sürətlənir, davamlı olaraq artan ÜDM-də sənayenin payı yüksəlir. Son 3 illik tendensiyaya nəzər salsaq, ÜDM-də sənayenin payının 2016-cı ildə təxminən 37,1 faiz, 2017-ci ildə 40,1 faiz, 2018-ci ildə 44 faiz, 2019-cu ilin yanvar-iyun aylarında isə 44,6 faiz olduğunu görərik.

### “Made in Azerbaijan” brendinin coğrafiyası genişlənir

Dünya bazarlarına “Made in Azerbaijan” brendi ilə çıxan məhsullarımızın ixrac coğrafiyası genişlənməkdə davam edir. Bazarlarda böyük şöhrət qazanan məhsullarımızın xarici ölkələrdə tanıdılması, satışının təşkili ilə bağlı həyata keçirilən ixrac missiyası və açılan ticarət evləri bu işdə çox əhəmiyyətli rol oynayır.

İxracın genişləndirilməsi, rəqabətədavamlı və ixrac potensiallı məhsullar bazasının zənginləşdirilməsi istiqamətində Prezident İlham Əliyevin “Made in Azerbaijan” brendinin xarici bazarlarda genişmiqyaslı təşviqinə dair 5 oktyabr 2016-cı il tarixli fərmanı mühüm əhəmiyyət kəsb edir. Fərmana uyğun olaraq, respublikamızın beynəlxalq əhəmiyyətli sərgilərdə “Made in Azerbaijan” vahid ölkə stendi ilə iştirakı təmin olunur, Azərbaycan məhsulları xarici KİV-də reklam edilir, ixrac təşviqinin geri ödənilməsi mexanizmi tətbiq olunur.

Qeyri-neft məhsulları ixracının stimullaşdırılması məqsədilə “Made in Azerbaijan” brendinin təbliği ilə bağlı dəstək tədbirləri həyata keçirilir, dövlət vəsaiti hesabına sahibkarlar ixrac missiyalarında, beynəlxalq sərgilərdə iştirak edirlər. Nazir qeyd edib ki, bu il ərzində dünyamiqyaslı beynəlxalq sərgilərdə sahibkarlarımız vahid ölkə stendi ilə iştirak ediblər. İlin sonuna kimi növbəti 4 beynəlxalq sərgidə vahid ölkə stendi ilə iştirak nəzərdə tutulur.

Həmçinin ixracatçıların potensial müştərilərlə, xüsusilə idxalçı və distribüterlərlə əlaqələrinin qurulması məqsədilə bu dövr ərzində Çin, Polşa, Latviya, Qətər, İsveçrə və Rusiyaya ixrac missiyaları təşkil olunub. Bu tədbirlər çərçivəsində Azərbaycan məhsullarının ixracına dair razılaşmalar və sifarişlər əldə edilib, müqavilələr imzalanıb.

2019-cu ilin 6 ayı ərzində ixracatçılara 5 milyon manatdan artıq, ümumilikdə isə 2016-cı ilin mart ayından bugünədək 14 milyon manatdan çox ixrac təşviqi ödənilib. Bu mexanizm çərçivəsində Almaniya, Rusiya, Çin, Polşa, İtaliya, Qazaxıstan, Litva, Cənubi Koreya, Yunanıstan, Kanada, Avstraliya, Malayziya, ABŞ, Yaponiya, Səudiyyə Ərəbistanı və digər ölkələrə 210 milyon dollardan çox qeyri-neft məhsulunun ixracı stimullaşdırılıb. Azərbaycanın xarici ölkələrdə 10 ticarət və şərab evi açılıb, Rusiya, Qazaxıstan və digər ölkələrdə ticarət evlərinin açılması ilə bağlı işlər görülür.

Bütün sahələrdə olduğu kimi, ölkə iqtisadiyyatında müəyyənləşdirilmiş hədəflərə çatmaq üçün islahatlar bir-biri ilə sıx əlaqələndirilir. İqtisadi göstəricilərdən göründüyü kimi, ən böyük yüksəliş qeyri-neft sənayesindədir. 15,7 faiz artım onu göstərir ki, son illərdə Prezident İlham Əliyevin sənayeləşmə siyasəti uğurlu nəticələr verir və dövlət başçısının dediyi kimi, sənayenin qeyri-neft sektoru rekord addımlarla irəliləyir.

Dövlət başçısının yeni iqtisadi strategiyasına uyğun yaradılan müasir sənaye müəssisələri daxili tələbatı ödəməklə yanaşı, “Made in Azerbaijan” brendinin xarici bazarlarda təşviqinə də mühüm töhfə verirlər.

Şahin Mustafayev vurğulayıb ki, bu gün Azərbaycanın artan potensialı istehsalın və ixracın genişləndirilməsinə, xarici ticarətin strukturunun şaxələndirilməsinə, rəqabətqabiliyyətli və ixracyönümlü qeyri-neft sektorunun inkişafına böyük imkanlar açır. İqtisadiyyatın bütün sahələrində olduğu kimi, xarici ticarət seqmentində də inkişaf kursu bu imkanların daha dolğun reallaşmasına yönəldilir.

Cənab İlham Əliyevin söylədiyi kimi, bütün iqtisadi göstəricilər, uğurlu nəticələr onu deməyə əsas verir ki, Azərbaycan düzgün istiqamətdə inkişaf edir və qarşıda duran bütün vəzifələr uğurla icra olunur.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# İqtisadi inkişafdan əldə olunan əlavə gəlirlər tam həcmdə sosial sahəyə, əhalinin rifahının yaxşılaşdırılmasına yönəldilir

“Ölkəmizin iqtisadi inkişafından əldə olunan əlavə gəlirlərin tam həcmdə sosial sahəyə, əhalinin rifahının yaxşılaşdırılmasına yönəldilməsi bu ilin ötən dövründə reallaşan iki mühüm sosial paketdə bir daha əməli şəkildə öz təsdiqini tapdı. Dövlət tərəfindən əlavə olaraq milyardlarla manat vəsait ayrılmasını tələb edən həmin inqilabi islahatlar Prezident İlham Əliyevin siyasətinin sosialyönümlü olduğunu və vətəndaş rifahının təminatına xidmət etdiyini növbəti dəfə göstərdi”.



Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən kollegiya iclasında kollegiyanın sədri, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev deyib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, iclasda bildirilib ki, iyulun 31-də Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə bu ilin birinci yarısının yekunları ilə əlaqədar qeyd edilən göstəricilər Azərbaycanın inamlı inkişafının uğurlu davamından xəbər verir. Müşavirədə Prezident bu il ərzində sosial sahədə reallaşan mühüm islahatlardan bəhs edərkən dedi: “Biz əlavə gəlirlərimizin demək olar ki, tam həcmini sosial sahəyə yönəldirik. Çünki sosial sahə bizim üçün prioritet sahədir və hər zaman bu sahə diqqət mərkəzində olub, bu gün də belədir. Azərbaycan vətəndaşlarının rifahı, onların yaşayış səviyyəsi daim diqqət mərkəzindədir və imkan daxilində biz bu məsələləri həll edirik”.

S.Babayev diqqətə çatdırıb ki, bu il minimum əməkhaqqının iki dəfəyə yaxın artırılması təmin edilib və bu tədbir 950 min insanın əməkhaqqının artımına imkan verib. Əlavə olaraq, 400 min işçinin əməkhaqqı 20-50 faiz artırılıb. 300 min əlilliyi olan şəxslərdən ibarət 600 min vətəndaşın müavinət və təqaüdlərində orta hesabla 100 faiz, 500 minə qədər məcburi köçkünün müavinətində 50 faiz artımlar edilib, 100 mindən artıq tələbənin təqaüdləri ciddi şəkildə artırılıb. Minimum pensiyanın 72 faiz artırılması 650 min insanı əhatə edib, eyni zamanda dövlət sektorunda işləyənlərin əməkhaqlarının sentyabrın 1-dən artırılması ilə əlaqədar 94 min nəfərin (xüsusi şərtlərlə pensiya təyin edilmiş şəxslər) pensiyasının artırılması təmin ediləcək. 800 min vətəndaşın problemli kreditləri ilə bağlı çətinliyi də aradan qalxıb. Ümumilikdə builki sosial islahatlar nəticə etibarilə birbaşa olaraq 4,2 milyon insanın yaşayışına mühüm dəstəkdir.

Nazir 2019-cu ilin bu uğurlarının sosial sahədə daha bir mühüm nailiyyətlə - Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST (Dayanıqlı və Operativ Sosial Təminat) layihəsinin reallaşması ilə davam etdiyini deyib. O bildirib ki, bu ilin mayında Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə açılış mərasimi olan DOST Agentliyi və ilk “DOST” mərkəzi ölkəmizin dövlət sosial xidmətləri sahəsində keyfiyyətcə yeni inkişaf mərhələsinə keçməyə imkan verib. Artıq DOST xidmətlərindən 23 min nəfərədək istifadə edib və həmin xidmətlərdən vətəndaşların tam məmnunluq səviyyəsi 93 faiz, qismən məmnunluq səviyyəsi 4 faiz təşkil edir.

S.Babayev dövlət başçısının tapşırığı ilə bu ilin əvvəlindən elektron pensiya təyinatına keçilməsinin ölkədə ilk proaktiv xidmət kimi mühüm uğurlardan olduğunu deyib. Bildirib ki, həmin elektron sistem əvvəlki dövrdə müraciət etmədiyi üçün pensiya təyin olunmamış şəxslərin də pensiya hüququnun reallaşmasına imkan verib, nəticədə bu ilin 6 ayında yaşa görə pensiya təyinatları 67,7 faiz artıb. Müavinət və təqaüdlərin təyinatı mexanizmi də avtomatlaşdırıldıqdan sonra il ərzində 180 mindən çox şəxsin sosial təminat növləri üzrə hüquqları belə proaktiv formada reallaşacaq.

Nazir yeni qurulan altsistemlərin, həmçinin “Məşğulluq” altsisteminin əhəmiyyətini vurğulayıb. İlin ikinci yarısında “Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə” altsisteminin də işə salınacağını qeyd edib.

S.Babayev 2019-cu ilin birinci yarısında nazirlik yanında Dövlət Məşğulluq Xidmətinin 54 minə yaxın şəxsi işlə təmin etdiyini, 838 nəfərin peşə hazırlığına (xidmətin xətti ilə 682 nəfər, nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun 1 saylı Sağlamlıq imkanları məhdud gənclərin Peşə Reabilitasiya Mərkəzi tərəfindən 156 nəfər) cəlb olunduğunu deyib. O, bu il üzrə özünüməşğulluq proqramı çərçivəsində artıq 4 min nəfərin təlimlərdən keçdiyini, 1100-dən çox şəxsin aktivlərlə təmin edildiyini deyib. Qeyd edib ki, Prezidentin tapşırığı ilə proqramın genişləndirilməsində beynəlxalq qurumlarla əməkdaşlığa da xüsusi əhəmiyyət verilir.

Nazir, həmçinin dövlət başçısının təşəbbüsü ilə icra olunan “İşsizin DOSTu” proqramı çərçivəsində bu ilin 6 ayında 38 min nəfərin əmək müqaviləsi əsasında ödənişli ictimai işlərlə təmin edildiyini bildirib. O, qeyri-neft sektorunun inkişafı, özəl sektorun genişlənməsi şəraitində işəgötürənlərlə, xüsusilə biznes strukturları ilə fəal əməkdaşlıq müstəvisində aktiv məşğulluq tədbirlərinin getdikcə daha da gücləndirilməsinin, bu sahədə “Məşğulluq” altsisteminin imkanlarından səmərəli istifadə edilməsinin, işlə təminat üzrə göstəricinin getdikcə yüksəldilməsinin qarşıda duran əsas vəzifələrdən olduğunu qeyd edib.

S.Babayev qeyri-rəsmi məşğulluğun qarşısının alınması tədbirlərinin növbəti müsbət nəticəsi kimi, bu ilin 6 ayında 102 min yeni əmək müqaviləsinin (24 min dövlət sektoru, 78 min özəl sektor üzrə) qeydiyyata alındığını, minimum əməkhaqqının növbəti dəfə artmasının, digər stimullaşdırıcı tədbirlərin, özəl sektorda yeni vergi-sığorta güzəştlərinin tətbiqinin və s. həmin göstəricinin bundan sonra da davam edəcəyini deməyə əsas verdiyini deyib. Bu il ərzində əməkhaqqı fondu dövlət sektorunda 15 faiz, özəl sektorda 25 faiz olmaqla, ümumilikdə orta hesabla 20 faiz artıb. Nazir bildirib ki, məşğulluq sahəsində aparılan islahatların bir istiqaməti də işsiz və işaxtaranlar üçün mövcud peşə hazırlığı sisteminin müasirləşdirilməsi və Regional Peşə Təhsili Mərkəzləri şəbəkəsinin genişləndirilməsidir. Eyni zamanda həmin mərkəzlərin fəaliyyətinin optimallaşdırılması və səmərəli təşkili, bu sahədə idarəçiliyin təkmilləşdirilməsi üçün onların publik hüquqi şəxs kimi formalaşdırılması və fəaliyyətinin təmin edilməsi üçün işlər aparılır.

Nazir mühüm sosial proqramların, o cümlədən şəhid ailələrinin və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə, həmin kateqoriyaya aid əlilliyi olanların minik avtomobili ilə təminatı tədbirlərini də diqqətə çatdırıb.

İclasda DOST Agentliyinin sədri Fərid Məmmədov, nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun direktoru Himalay Məmişov, nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi vəzifəsini müvəqqəti icra edən Fuad Heydərov, nazirlik yanında Dövlət Məşğulluq Xidmətinin rəisi Fuad Musayev, nazirlik yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin rəisi Cavid Abdul-Qədirov, Ümumi şöbənin sektor müdiri Günel Nəsibova nazirliyin müvafiq fəaliyyət sahələrində görülən işlər və aparılan islahatların nəticələri barədə məlumat veriblər.

Görülmüş işlərin yekunları ətraflı təhlil olunub. Prezident İlham Əliyevin yanında keçirilən müşavirədə sosial sahə ilə bağlı verilmiş tapşırıqların icrası istiqamətində qarşıda duran vəzifələr müzakirə olunub. İkinci sosial paketin icrasının təmin edilməsi üçün aparılan işlər bir daha nəzərdən keçirilib. Özünüməşğulluq proqramının əhatə dairəsinin, DOST xidmətləri və reabilitasiya müəssisələri şəbəkəsinin, əmək, məşğulluq, sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi, qeyri-leqal məşğulluğun qarşısının alınması və s. istiqamətlərdə görüləcək işlər müzakirə edilib, nazir tərəfindən aidiyyəti üzrə tapşırıqlar verilib.

# Bakıda “Dini bayramlar: tarix, ənənə və müasirlik” mövzusunda konfrans keçirilib

Avqustun 7-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə “Dini bayramlar: tarix, ənənə və müasirlik” mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda çıxış edən komitə sədrinin birinci müavini Səyyad Salahlı ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə qurulmasından, dini mərasimlərin keçirilməsi üçün lazımi şəraitin yaradılmasından, həmçinin milli-mənəvi irsimizin qorunması, təbliği və gələcək nəsillərə ötürülməsi istiqamətində görülən ardıcıl tədbirlərdən söhbət açıb. O, eyni zamanda müxtəlif dini mərasimlərin, müqəddəs bayramların tarixi xüsusiyyətləri, milli aspektləri və müasir dəyərlər sistemindəki yeri barədə konfrans iştirakçılarına ətraflı məlumat verib. S.Salahlı vurğulayıb ki, islam dünyasının ən müqəddəs bayramlarından hesab olunan Qurban bayramı bütün müsəlman ölkələrində təmtəraqla qeyd olunur, islamda bu bayram xüsusi mahiyyət və əhəmiyyət kəsb edir, onun əsasında Allaha sonsuz sevgi, onun qüdrətinə dərin inam və iman işığı durur.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Ceyhun Əliyev dini bayramların tarixindən və əhəmiyyətindən bəhs edib. O bildirib ki, dini bayramlar mövzusu həmişə aktual olub, xüsusilə islam dini ilə əlaqəli bayramların qeyd edilməsi məsələsində maarifçi yanaşma, dini məqamların doğru şəkildə insanlara çatdırılması olduqca əhəmiyyətlidir. Bayramların tarixi xüsusiyyətlərini, təsnifatını, ölkəmizdə qeyd olunan müxtəlif dinlərə aid bayramların mahiyyətini diqqətə çatdıran Ceyhun Əliyev vurğulayıb ki, bu bayramlar bizim milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir.

O təəssüflə bildirib ki, bəzən dini bayramlar vasitəsilə radikal, qeyri-ənənəvi ideyaların xaricdən ixrac edilməsinə cəhd edilir ki, bu da zərərli prosesdir. C.Əliyev qeyd edib ki, bu baxımdan bayramların mahiyyətini qorumaq bizim ən ümdə vəzifəmizdir. Hər birimiz fərd olaraq bu bayramların mahiyyətindən uzaqlaşmalı deyilik. Dini bayramlar ona görə qeyd olunur ki, insanlar bir-birilərinə qarşı laqeyd olmasınlar. Bu bayramlar insanları halallığa, paklığa, vəhdətə səsləyir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Əliheydər Zülfüqarov vurğulayıb ki, ənənəvi bayramlardan fərqli olaraq, Azərbaycanda dini bayramlar islam dini təsəvvürləri ilə əlaqədar təşəkkül tapıb, eləcə də əhatəliliyinə görə bu bayramlar digərlərindən heç də geri qalmır. Azərbaycan müstəqillik qazandıqdan sonra Qurban, Ramazan ümumxalq bayramları sırasına daxil olub, dövlət səviyyəsində qeyd olunmağa başlayıb və həmin günlər qeyri-iş günü elan olunub.

Ə.Zülfüqarov xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri olduğunu, bu gün də əsasını Ümummilli Liderimizin qoyduğu nümunəvi dövlət-din siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. O qeyd edib ki, dövlət başçısının Ramazan bayramı münasibətilə təşkil edilən iftar mərasimində iştirak etməsi, dini bayramlar ərəfəsində islam dininə mənsub xarici ölkə səfirlərini qəbul etməsi, həmçinin islam dini ilə yanaşı, digər dinlərin nümayəndələrinə məxsus dini bayramlarının təşkilinə və qeyd olunmasına dəstək verməsi dövlətin dini bayramlara verdiyi dəyərin bariz nümunəsidir. O, həmçinin bildirib ki, müsəlmanın Qurban və Ramazan bayramlarını qeyd etməsi ümumi vəhdət prinsipinə əsaslanır və burada dindar, yaxud qeyri-dindarlığın çalarlarını axtarmaq düzgün olmazdı. Bu vəhdət prinsipinə yad olan ünsürlər var. Bu ünsürlər müəyyən xarici dairələrdən təsirlənərək bayram günlərinə qısqanclıqla yanaşaraq cəmiyyəti parçalamağa çalışırlar ki, bu kimi hallarda həmin dairələrə sivil formada adekvat cavab verilir.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev Qurban bayramının ən gözəl xüsusiyyətlərindən birinin din, məzhəb ayrıseçkiliyinə yol verilməməsi olduğunu deyib. Bu bayramda istənilən dindən olan kimsəsizin və yoxsulun haqqı var ki, varlının imkanlarından bəhrələnsin, adi günlərdə yeyə bilmədiyi qurbanlıq ətindən dadsın. Qurbanlıq o deməkdir ki, insanlar Allahın xoşuna gələcək bir əməli icra edirlər.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin əməkdaşı Araz Qurbanov respublikamızda yaşayan müxtəlif dinlərin nümayəndələrinin dini bayramlarını öz ənənələrinə uyğun şəkildə qeyd etmələri üçün yüksək şəraitin yaradıldığını bildirib. O vurğulayıb ki, dini bayramlar həmrəylik nümunəsidir, sosial səviyyəsindən, mədəni, etnik müxtəlifliyindən asılı olmayaraq bütün insanlar bu bayramları vəhdət halında yüksək səviyyədə qeyd edirlər.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Avqustun 7-də Təhsil naziri Ceyhun Bayramov Astara şəhərindəki Heydər Əliyev Mərkəzində Astara, Lerik və Lənkəran rayonlarının sakinlərini qəbul edib.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin avqust ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda qeyd olunan rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Qəbulda vətəndaşların müraciətləri əsasən, müəllimlərin işə qəbulu və yerdəyişməsi, ali təhsil müəssisələrinə bərpa olunma, həmçinin digər məsələlərlə bağlı olub.

Nazir vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək onların aradan qaldırılması, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

* * *

Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin (ASC) sədri Əhməd Əhmədzadə avqustun 7-də Oğuz şəhərində vətəndaşlarla görüşüb.

Oğuz Suvarma Sistemləri İdarəsinin inzibati binasında keçirilən qəbulda Oğuz və Şəki rayonlarından olan vətəndaşların müraciətləri dinlənilib.

Müraciətlər əsasən suvarma suyuna tələbatın ödənilməsi, yeni subartezian quyularının qazılması, sel sularına qarşı mühafizə bəndlərinin tikilməsi, suvarma kanallarının lildən təmizlənməsi, həmçinin cəmiyyətin səlahiyyətlərinə aid olmayan müxtəlif məsələləri əhatə edib.

Qəbul zamanı hər bir vətəndaşın müraciəti ASC-nin sədri Əhməd Əhmədzadə tərəfindən diqqətlə dinlənilib, qaldırılan məsələlərin bir qismi yerində həll olunub. Digər müraciətlər üzrə cəmiyyətin məsul işçilərinə müvafiq tapşırıqlar verilib. Araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin avqust ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, avqustun 9-da Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədr müavinləri Zakir Quliyev Qəbələ rayonunda, Rafiq Aslanov isə İsmayıllıda vətəndaşları qəbul edəcəklər.

***AZƏRTAC***

# "Artilleriya atəşinin ustaları" müsabiqəsinin təntənəli açılış mərasimi olub





Avqustun 7-də "Beynəlxalq Ordu Oyunları - 2019" yarışları çərçivəsində Qazaxıstanda keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsinin təntənəli açılış mərasimi keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mərasimdə yarışlara qatılan komandaların üzvləri, nümayəndə heyətləri və rəsmi şəxslər üçün maraqlı konsert proqramı təqdim olunub.



# "Dəniz kuboku - 2019" müsabiqəsinin növbəti epizodunda da Azərbaycan dənizçiləri qalib gəliblər





"Dəniz kuboku - 2019" müsabiqəsinin "Gəminin dayanıqlılığı uğrunda mübarizə və xilasetmə hazırlığı" üzrə mərhələsində hərbi dənizçilər "Xilasetmə vasitələrinin istifadəsi" tapşırıqlarını yerinə yetiriblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, beynəlxalq hakimlər kollegiyasının qərarı ilə bu mərhələnin də qalibi Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandası olub. Qərara əsasən Azərbaycanın hərbi dənizçiləri birinci, Rusiya ikinci, Qazaxıstan üçüncü, İran isə dördüncü yerə layiq görülüblər.



# Hərbi hissədə mədəni-kütləvi tədbir keçirilib

Müdafiə Nazirliyinin və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin birgə təşkilatçılığı ilə N hərbi hissədə mədəni-kütləvi tədbir keçirilib.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.



İştirakçılara tədbirin mahiyyəti, şəxsi heyətin asudə vaxtının səmərəli təşkili barədə məlumat verilib. Qeyd olunub ki, belə tədbirlər şəxsi heyətin mənəvi-psixoloji hazırlığına müsbət təsir göstərir və hərbi qulluqçulara böyük ruh yüksəkliyi aşılayır.

Mədəni-kütləvi tədbirin bədii hissəsində Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin yaradıcı kollektivi konsert proqramı ilə çıxış edib.

Sonda tədbirin təşkilində fəal iştirak edənlərə hərbi hissə komandiri adından fəxri fərmanlar təqdim olunub.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Cəvahirli, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

Vətəndaş məmnunluğu

# Qayğı xoş ovqat yaradır

Ağdamın böyük bir hissəsi 1993-cü ilin iyul ayından bəri işğal altındadır. Ermənistan silahlı qüvvələri havadarlarının köməyi ilə rayon ərazisinin dörddə üç hissəsini odlara qalayıb viran qoymuş, tarixi abidələri, milli mədəniyyət nümunələrini, kəndləri, şəhərləri yerlə yeksan etdilər. İsti yuvasından, doğma ev-eşiyindən perik salınan ağdamlılar məcburi köçkünə çevrilib ölkənin yaxın-uzaq bölgələrinə səpələndilər.



Əhalinin əksəriyyəti yük vaqonlarında, qarğı-qamışdan tikilib palçıqla suvanmış daxmalarda, yaxşı halda isə çadır şəhərciklərində unudulması mümkünsüz olan əzablı günlər yaşadılar. Ürəklərində dövlətə, Prezidentə yenilməz inamla çətinliklərə səbirlə dözdülər, tablaşdılar, ağır məşəqqətlərə sinə gərdilər. 2003-cü ildə prezident seçkiləri ərəfəsində cənab İlham Əliyev Bərdə rayonu ərazisində salınmış türk "Qızıl ay" çadır şəhərciyində məskunlaşan məcburi köçkünlərlə görüşündə ölkədə bir dənə də olsun çadır şəhərciyi qalmayacağını, qaçqın və məcburi köçkünlərin probleminin həlli onun üçün hər zaman prioritet olacağını vəd etdi. Belə də oldu. Prezident İlham Əliyev çox qısa zaman kəsiyində ölkədə bütün çadır şəhərciklərinin ləğvinə, əvəzində hər cür sosial infrastruktura malik çoxsaylı yeni yaşayış məhəllələrinin, yaraşıqlı qəsəbələrin inşasına nail oldu. İndi təkcə Ağdam rayonu ərazisində salınan yeni yaşayış qəsəbələrinin sayı 18-ə çatır. Bu, müxtəlif bölgələrə səpələnmiş ağdamlı məcburi köçkünlərin doğma rayona qayıtmasına, uzun zamandan bəri həsrət qaldıqları yurdun havasını udmağa, suyunu içməyə imkan verir.

Dövlətin davamlı qayğısından güc alan ağdamlılar həvəslə tikib-qurur, yaşadıqları ərazini abadlaşdırır. İstifadələrində olan torpağın hər qarışından maksimum səmərəli istifadə etməyə çalışaraq bol taxıl, pambıq, ət, süd, meyvə, bostan-tərəvəz məhsulları istehsal edirlər. Beləcə, Ağdam kəndlisi həm ölkə iqtisadiyyatının güclənməsinə, ərzaq bolluğu yaradılmasına sanballı töhfələr verir, həm də öz halal zəhmətilə ailə təknəsinin bol ruzisini təmin edir.

Ağdamdakı sağlam mənəvi-psixoloji mühitin mövcudluğu hər kəsdə rahatlıq, könül xoşluğu yaradır. Bu reallığın əsas şərti Azərbaycan Prezidenti İlham Əliyevin dövlət məmurlarına xalqa xidmətlə bağlı verdiyi tapşırıq və tövsiyələrə rayon rəhbərliyinin məsuliyyətli münasibətidir. Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov həftənin bütün günlərində rayon sakinlərini qəbul edir, onların şikayət və təkliflərini dinləyir, qarşıya çıxan problemlərin həlli üçün zəruri tədbirlər görür. Vaxtaşırı müxtəlif ərazilərdə keçirilən səyyar qəbul-görüşlər isə əhali ilə canlı ünsiyyətin qurulmasında ən yaxşı vasitədir. Bu ilin altı ayı ərzində 24 belə görüş keçirilmişdir. Bütövlükdə görüşlərdə təxminən 3 min nəfər iştirak etmiş, 500-dən çox məsələ müzakirə edilmişdir. Edilən şikayətlərin, verilən təkliflərin əksəriyyəti elə yerində də öz həllini tapır. Səyyar qəbul-görüşlərdə rayonun idarə və müəssisələrinin, xidmət təşkilatlarının rəhbərləri iştirak edirlər. Səslənən təklif və şikayət hansı təşkilata aiddirsə, onun rəhbəri görəcəyi tədbirlə bağlı dərhal məlumat verir. Qarşıya çıxan problem rayonun imkanları xaricində olanda rayon icra hakimiyyətinin başçısı respublikanın əlaqədar nazirlik və komitələri ilə əlaqə yaradıb kömək istəyir. Əksər hallarda problem öz həllini tapır.

Şəkinin Aşağı Küngüt kəndində məskunlaşmış Asif Nəsirov deyir:

- İyun ayının sonu idi. Yaşadığımız ev və tövləmiz yandı. Xeyli mal-qaramız tələf oldu. Rayonumuzun icra başçısı Vaqif Həsənov hadisədən xəbər tutan kimi gəlib vəziyyətlə tanış oldu. Rayon icra hakimiyyətinin xətti ilə bizə xeyli maddi yardım edildi. Üç ailənin yaşadığı, yanıb yararsız vəziyyətə düşmüş evin təmir olunması ilə bağlı rayonun rəhbəri yanımızdaca Qaçqınkoma müraciət etdi. İki gündən sonra təmir işlərinə başladılar.

Mahrızlı kəndində məskunlaşmış Xocalı sakini Emil Mirzəyev:

- Dəmir vaqonda ağır şəraitdə yaşayırdıq. Vəziyyətin dözülməz olduğundan Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənova müraciət etdim. Söz verdi ki, vəziyyətə gəlib baxacağam. Çox keçmədi ki, gəldi. Bundan sonra qısa müddət ərzində ailəmiz üçün 4 otaqlı ev tikib istifadəmizə verdilər. Bilirik ki, bu şəraiti yaradan Prezident İlham Əliyevdir. O, həmişə məmurlara tapşırır ki, xalqa yaxşı xidmət edin. Ailəmizin bütün üzvləri adından "çox sağ olun, cənab Prezident!" deyirəm.

Şəhid anası Qənirə Əmrahova:

- Ailəmiz ev sarıdan korluq çəkirdi. Onu da bilirdik ki, ölkəmizdə şəhid ailələrinə hərtərəfli qayğı və ehtiram göstərilir. Bu imtiyazdan istifadə etməyə utandığım üçün uzun illər sakit dayandım. Amma bir dəfə Heydər Əliyev Fonduna müraciət etdim. Birinci vitse-prezident Mehriban xanım Əliyeva xeyirxahlığını əsirgəmədi. Yaşadığımız Evoğlu kəndində ailəmiz üçün yaraşıqlı, hər cür rahatlığı olan ev inşa olundu. Fürsət düşmüşkən rayon icra hakimiyyətinin rəhbərliyinə də minnətdarlığımı bildirmək istəyirəm. Onlar tez-tez tikintiyə baş çəkirdi, lazımi köməyi əsirgəmirdilər.

Belə misalların sayını artırmaq da olar. Əsas odur ki, Prezident İlham Əliyevin xalqa nümunəvi xidmət göstərmək, hər bir ölkə vətəndaşını qayğı və diqqətlə əhatə etmək barədə dövlət məmurlarından tələbinin cəbhə bölgəsi olan Ağdamda icrası məmnunluq yaradır.

***Lazım QULİYEV, "Azərbaycan"***

# Xankəndidə etiraz aksiyaları keçirilir

## Ermənistan rəhbərliyinin təcavüzkar və qəbuledilməz Dağlıq Qarabağ siyasəti isə danışıqları pozmağa yönəlib

*Əvvəli 1-ci səh.*



Belə vəziyyət öz növbəsində münaqişənin alternativ yolla həllini aktuallaşdırır. Eyni zamanda o da danılmaz faktdır ki, Azərbaycan ərazilərinin hərbi işğalının davam etdirilməsinə görə məsuliyyət daşıyan tərəf Ermənistandır.

BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə görə Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarmayana qədər Ermənistan bu məsuliyyətdən qaça bilməz. Digər tərəfdən, ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən təqdim olunan və hazırda müzakirə edilən bütün sənədlərdə Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin əhalisi kimi erməni və azərbaycanlı icmaları müəyyən edilib. Rəsmi Bakı Ermənistanın baş nazirinə ziddiyyətli açıqlamalarla çıxış etmək əvəzinə həmin sənədləri oxumağı tövsiyə edir. Amma Paşinyan bütün bunların əvəzinə təxribat xarakterli və ziddiyyətli açıqlamalarla yanaşı, davamlı şəkildə cəbhə xəttində vəziyyətin gərginləşdirilməsinə və danışıqlar prosesinin pozulmasına yönəlik addımlar atır.

Əgər qarşı tərəf buna son qoymasa, Azərbaycan ərazi bütövlüyünü güc hesabına təmin etməli olacaq. Bu gün isə məsələnin sülh yolu ilə həllinə ümidlər tükənmədiyindən münaqişənin danışıqlar yolu ilə həlli istiqamətində səylər davam etdirilir. Təəssüf ki, Ermənistan problemin dinc müstəvidə həlli məqsədilə ona verilən şansı hələ də lazımınca dəyərləndirmir. Bunu işğal olunmuş ərazilərdə yaradılan separatçı rejimin bundanəvvəlki dövrdə keçirdiyi qondarma "parlament" və "prezident" seçkiləri də dəfələrlə təsdiq edib.

Ermənistanda, eləcə də Azərbaycanın işğal edilmiş ərazilərində baş verən son proseslər erməni cəmiyyətində də artıq yeni qarşıdurma mərhələsinin başlandığını göstərir. Hakimiyyəti tam ələ alan Nikol Paşinyan Sarkisyan-Koçaryan koalisiyasını tam şəkildə çökdürməkdə israrlıdır. Hərbi xuntanı əvvəlcə Ermənistanda hökumətdən, daha sonra parlamentdən uzaqlaşdıran Paşinyan artıq əsas diqqəti Azərbaycanın zəbt edilmiş ərazilərində yaradılan separatçı rejimə yönəldir.

Burada da keçmiş qruplaşmanı tam çökdürmək niyyətində olan Paşinyan separatçıların rəhbəri vəzifəsinə özünə yaxın saydığı şəxsi gətirməyi düşünür. Elə bu səbəbdən onun separatçı rejimin rəhbəri Bako Saakyanla münasibətləri olduqca kəskindir. Elə Paşinyanın Xankəndiyə sonuncu səfəri çərçivəsində Azərbaycanın işğal olunmuş ərazilərində ermənilər etiraz aksiyaları keçirib. Nikol Paşinyanın Xankəndiyə gəlməsindən istifadə edən narazı kütlə separatçı qurumun rəhbəri Bako Saakyanın əleyhinə etiraz aksiyaları keçirib.

Yerli mətbuatın verdiyi xəbərə görə, kütlə qarşısında çıxış etməyə çalışan Bako Saakyana imkan verilməyib. Ermənistanın təhlükəsizlik xidmətinin rəhbəri Artur Valentenyan etirazçılarla dialoq qurmağa çalışsa da buna nail ola bilməyib. Aksiya iştirakçıları bildiriblər ki, onlar heç kimi dinləmək istəmirlər. Narazı kütlə etiraz edir ki, Bako Saakyan və ətrafı burada 20 ildən çoxdur soyğunçuluq və talanla məşğuldur. "Bako Saakyan da Manvel Qriqoriyan kimilərdəndir, onun haqqında araşdırma aparılsın. O, cinayətkardır, gördükləri işlər isə göz qabağındadır. Bunlar bölgədə quldurluqla məşğuldurlar. Kifayətdir, bizim səbir-kasamız dolub. Quldur dəstə getməsə biz daha sərt addımlar atacağıq" deyə narazı kütlə bəyan edib.

Ümumiyyətlə, Paşinyan hesab edir ki, Bako Saakyan onun hakimiyyəti üçün təhdid mənbələrindən biridir. Çünki separatçıların lideri birbaşa sabiq prezident Serj Sarkisyana yaxın kimi tanınır. Məhz bu vəziyyətdə Qarabağ erməniləri ilə Ermənistan erməniləri arasında ziddiyyət dərinləşir. Görünən budur ki, Paşinyan Qarabağ separatçılarını diz çökdürmək üçün güc amilindən belə istifadə etməyə hazırdır. Artıq Ermənistanda sosial şəbəkələrdə yer alan xəbərlərdə Xankəndini etiraz dalğasının bürüdüyü bildirilir. Qeyd olunur ki, artıq bir neçə gündür şəhərin mərkəzi küçələrində müxtəlif təbəqələrdən olan əhalinin iştirakı ilə etiraz aksiyaları keçirilir.

Azərbaycan işğalçı Ermənistana həm diplomatiya müstəvisində böyük zərbələr vurur, həm də bu ölkəni təcrid vəziyyətinə salmaqla onun sosial-iqtisadi çöküşünü sürətləndirir. Ermənistan işğal siyasətinə son qoymayana qədər bu vəziyyətdə qalmağa, daha böyük problemlərlə üzləşməyə davam edəcək. Elə 20 il Ermənistana rəhbərlik etmiş oğru, kriminal rejimin hakimiyyətdən qovulmasını təmin edən məqamlardan biri də məhz Azərbaycanın həyata keçirdiyi təcrid siyasətidir.

İndi dünya miqyasında da birmənalı qəbul olunan həqiqət budur ki, işğal siyasətinə son qoymayacağı təqdirdə qarşıdakı dövr ərzində Ermənistanı daha böyük problemlər gözləyir. Hakimiyyətin dəyişməsi ilə nəticələnmiş inqilab eyforiyası bitdikdən sonra Ermənistanda mövcud sosial-iqtisadi problemlər yenidən ön plana çıxıb. İndi cəmiyyət yeni hakimiyyətdən üzləşdikləri sosial çətinliklərin həllini tələb edir. Amma bunun üçün lazımi resurslar olmadığından ölkəni yenidən aksiyalar, tətillər bürüyür.

Hər halda proseslərin gedişi Ermənistanı qarşıdakı dövr ərzində daha çətin günlərin və qarşıdurmaların gözlədiyini göstərir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

“Əsrin müqaviləsi” - 25

# İştirakçı tərəflərin iqtisadi maraqlarına cavab verən marşrut

## Bakı-Supsa kəməri İlkin Neft Layihəsinin mühüm hissəsi idi

İlkin Neft Layihəsinin (İNL) vacib şərtlərindən birini Qərb İxrac Boru Kəmərinin (QİBK) istifadəyə verilməsi təşkil edirdi. Odur ki, 1996-cı ilin martında Azərbaycan və Gürcüstan arasında “Əsrin müqaviləsi”nin ilk neftinin nəqlinə dair hökumətlərarası saziş imzalandı.



Bu saziş üç il ərzində icra olundu, yəni QİBK bu dövrdə tikildi. QİBK-i qısaca olaraq Bakı-Supsa kəməri də adlandırırlar. Diametri 530 millimetr olan kəmərin çəkilişi əsasən 1997-1998-ci illər ərzində aparıldı. 1998-ci ilin dekabr ayında QİBK-ə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin nefti vuruldu. Onun inşa olunmasında 4 mindən çox insan çalışdı. Onların 70 faizi Azərbaycan və Gürcüstan vətəndaşları idi.

Beləliklə, 1999-cu il aprelin 17-də Azərbaycan neftini Səngəçal terminalından başlayaraq Qara dəniz sahilindəki Supsa limanınadək daşıyan QİBK istifadəyə verildi. Bakı-Supsa kəməri Azərbaycanın və Gürcüstanın bir çox bölgələrindən, dağlarından, dərələrindən, çaylarından keçir. Boru xətti dağlarda hətta 1190 metr yüksəkliyə qalxır. Sonra kəmər Supsa terminalına və Qara dənizdəki tankeryükləmə qurğusuna yaxınlaşaraq mənzil başına çatır.

Kəmərin ümumi uzunluğu təxminən 830 kilometrdir. Bunun 456 kilometrdən çoxu Azərbaycanın, 372 kilometrdən çoxu Gürcüstanın payına düşür.

Bu marşrutun işə düşməsi “Əsrin müqaviləsi”nin imzalanmasından sonra Azərbaycanın və ümumiyyətlə, regionun həyatında baş verən mühüm hadisələrdən biri idi. Ulu Öndər Heydər Əliyevin kəmərin açılış mərasimində iştirak etməsi bu hadisənin böyük əhəmiyyətini təsdiqləyirdi.

Ümummilli Lider kəmərin açılışında çıxış edərkən onun istifadəyə verilməsinin əhəmiyyətini belə vurğulamışdır: “Beləliklə, 1994-cü ildə başlanmış işlər artıq öz praktiki nəticələrini verir. Bakı-Supsa neft kəməri, burada tikilmiş gözəl terminal, müvəffəqiyyətlə işləmək və nefti fasiləsiz olaraq vurmaq, onu dünya bazarlarına daşımaq üçün yaradılmış gözəl şərait buna inandırıcı sübutdur”.

Ulu Öndər QİBK-i yüksək dəyərləndirmiş, onun Azərbaycanın təkcə sənayesinə deyil, bütün iqtisadiyyatına, ölkəmizin regiondakı geosiyasi mövqelərinin möhkəmlənməsinə müsbət təsir edəcəyini bildirmişdir. Bakı-Supsa kəmərini “Gürcüstan ilə Azərbaycan arasında dostluq və əməkdaşlığın parlaq misalı”, “Qafqazda sabitliyin və sülhün möhkəmlənməsinə mühüm töhfə” kimi səciyyələndirmişdir.

Bakı-Supsa kəməri bütün tərəflərin iqtisadi maraqlarına cavab verən marşrut idi. Onun fəaliyyəti iqtisadi-maliyyə dividendləri ilə yanaşı, region ölkələrinin geosiyasi çəkisinin artmasına, sülh və təhlükəsizliyin təmin olunmasına hesablanmışdı. Təsadüfi deyil ki, kəmərin açılışında Gürcüstanın və Ukraynanın ovaxtkı prezidentləri də iştirak etmişdilər. Həmin gün Supsa terminalının və Varna-Poti-Batumi-İliçovsk bərə keçidinin açılışı da olmuşdu.

Bakı-Supsa kəməri Bakı-Novorossiysk xətti (Şimal İxrac Boru Kəməri) ilə yanaşı, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru kəmərinin yaranmasında model rolunu oynadı. Bu marşrutların istismarı prosesində texniki, iqtisadi, təhlükəsizlik və digər sahələrdə toplanmış təcrübə gələcəkdə Azərbaycanın karbohidrogen ehtiyatlarının ixracı ilə bağlı müxtəlif məsələlərin həllində mühüm əhəmiyyət kəsb etdi.

Təkcə keçən il Qərb İxrac Boru Kəməri marşrutu ilə 28 milyon bareldən çox neft ixrac olunub.

Prezident İlham Əliyev Bakı-Supsa kəmərinin əhəmiyyətini həmişə yüksək dəyərləndirir. Dövlət başçısı Azərbaycanın yaratdığı mükəmməl beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq formatında bu kəmərin əhəmiyyətini belə vurğulamışdır: “Bu, regional və daha sonra beynəlxalq əməkdaşlığın yaranmasında iki mühüm mərhələ oldu. Regional əməkdaşlığa gəldikdə, bu regionda üç ölkə - Azərbaycan, Gürcüstan və Türkiyə uzun illərdir ki, uğurla əməkdaşlıq edir və bu üç ölkə dəhlizlər yaratmağa müvəffəq olmuşdur. Bu, ən vacib olan məsələ idi. Xəzər dənizini Qara dəniz ilə bağlayan neft kəməri mövcud deyildi. Biz ilk olaraq buradan Gürcüstanın Qara dəniz sahillərinədək uzanan Bakı-Supsa neft kəmərini inşa etdik. Daha sonra Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas neft kəməri və nəhayət, Bakı-Tbilisi-Ərzurum qaz kəməri inşa edilmişdir”.

Bütün bu yollar Azərbaycanın “Cənub qaz dəhlizi” kimi nəhəng bir layihənin təşəbbüsçüsü və aparıcı qüvvəsi olmasına gətirib çıxardı. 20 il əvvəl QİBK istifadəyə veriləndə təsəvvür etmək belə çətin olardı ki, qısa zaman ərzində Azərbaycanın ixrac infrastrukturu bu cür genişləndiriləcək və neft-qaz ehtiyatlarını dünya bazarlarına nəql edən marşrutlar şaxələnəcək. Bu, Azərbaycan dövlətinin yeritdiyi düzgün iqtisadi siyasətin nəticəsində mümkün olmuşdur. Ötən dövr ərzində ölkəmiz qarşıya qoyulan məqsədlərə çatmış və “Əsrin müqaviləsi”ndən başlanan yollar indi Azərbaycanın karbohidrogen ehtiyatlarını dünya bazarlarına nəql edən nəhəng dəhlizə çevrilir.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

Məlum olduğu kimi, iyulun 31-də Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilmiş müşavirədə gizli iqtisadiyyatın səviyyəsinin azaldılması, vergidən yayınma hallarına son qoyulması, vergilərin tam şəkildə dövlət büdcəsinə ödənilməsi, vergi mədəniyyətinin yüksəldilməsi, əlverişli sahibkarlıq mühitinin yaradılması, vergitutmanın optimallaşdırılması, vergi yükünün aşağı salınması, çevik inzibatçılığın yaradılması ilə bağlı vergi orqanlarının gördüyü işlər qeyd edilməklə yanaşı, qarşıya yeni vəzifələr də qoyulmuşdur.




# 6 ayda vergi daxilolmalarının 70 faizi qeyri-neft sektorunun payına düşüb

Bu barədə Vergilər Nazirliyində cari ilin 6 ayı ərzində görülən işlərlə bağlı keçirilmiş yığıncaqda danışılmışdır. Qeyd olunmuşdur ki, yanvar-iyun aylarında vergi daxilolmalarının (o cümlədən qeyri-neft sektoru üzrə vergi daxilolmalarının) artım tempi bu sahədə ÜDM-in nominal artım tempini üstələyib. Daha sonra bildirilmişdir ki, dövlət büdcəsinə vergi daxilolmalarının təmin olunması, vergitutma bazasının genişləndirilməsi, effektiv vergi nəzarətinin tətbiqi, vergi uçotunun düzgün qurulması istiqamətində hesabat dövründə aparılan tədbirlər nəticəsində gizli iqtisadiyyatda cəmlənmiş dövriyyələrin şəffaflaşdırılması prosesinin başlandığı müşahidə edilir: “Cari ilin birinci yarısında qeydiyyata alınmış vergi ödəyicilərinin sayının, o cümlədən aktiv ödəyicilərin, habelə aktiv ƏDV ödəyicilərinin, qeydə alınmış obyektlərin (təsərrüfat subyektlərinin) sayının artması, qeyri-dövlət sektorunda əmək müqaviləsi bağlanmış muzdlu işçilərin sayında və əməkhaqqı fondunda, eləcə də iqtisadiyyatın ayrı-ayrı sektorlarında dövriyyələrin yüksəlməsi vergi daxilolmalarına müsbət təsir edib”.

Yığıncaqda həmçinin diqqətə çatdırılmışdır ki, 6 ayda vergi orqanlarının xətti ilə icmal büdcəyə 4 milyard 954 milyon manat vəsait daxil olub: “Bunun 3 milyard 633 milyon manatı dövlət büdcəsinə ödənilmiş vergilər, 1 milyard 321 milyon manatı DSMF-yə ödənilmiş sosial və işsizlikdən sığorta haqlarıdır. Vergilər Nazirliyi tərəfindən vergi yığımı üzrə proqnoza 108,8 faiz əməl olunub, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 7,4 faiz və ya 250 milyon manat çox vergi toplanıb. Vergi daxilolmalarının 70 faizi qeyri-neft-qaz sektorunun, 30 faizi neft-qaz sektorunun payına düşüb. Cari ilin 6 ayında 2019-cu il üzrə illik proqnozun 49,7, o cümlədən qeyri-neft sektoru üzrə 51,1 faizi icra olnub”. Bu barədə başqa bir fakt: “İlin əvvəlindən ötən 6 ayda qeyri-neft sektoru üzrə vergi daxilolmaları 14,3 faiz və ya 319 milyon manat artıb, bu sektor üzrə proqnoz 112 faiz icra edilərək əlavə 279 milyon manat vergi toplanıb. Özəl bölmənin qeyri-neft vergi daxilolmalarında xüsusi çəkisi isə 77 faizə yüksəlib”.

O da bildirilmişdir ki, yanvar-iyun aylarında qeyri-neft sektorunun bütün fəaliyyət sahələrində vergi daxilolmalarının artımı müşahidə edilib: “Daxilolmalarda ən yüksək artım templəri rabitə (48 faiz), bank və sığorta (45 faiz), nəqliyyat (23 faiz), xidmət (21 faiz), tikinti (7,7 faiz) və digər sahələrdə (19,8 faiz) qeydə alınıb”.

Yığıncaqda qeyd olunan digər müsbət göstərici hesabat dövründə regionlardan vergi daxilolmalarının 12,6 faiz artması, bölgələrin ümumi vergi daxilolmalarında xüsusi çəkisinin 10 faizə yüksəlməsidir. Eyni zamanda vurğulanmışdır ki, əmək bazarında şəffaflaşma proseslərinə başlanılması, nəticədə işçi sayının və əməkhaqqı fondunun yüksək artım dinamikası şəraitində sosial sığorta haqları üzrə daxilolmalar 16,3 faiz artaraq 1 milyard 273 milyon manat təşkil edib və proqnoz 112,5 faiz icra olunub.

Şəffaflıqdan söz düşmüşkən onu da bildirək ki, cari ilin 6 ayında qeyri-neft sektorunun ümumi dövriyyəsində elektron qaimə-fakturalar ilə rəsmiləşən dövriyyənin xüsusi çəkisi 7 faiz artaraq 61,3 faizə çatıb: “Ticarət sektorunda dövriyyə 22, o cümlədən pərakəndə ticarətdə 35, ictimai iaşədə isə 26 faiz artıb. Topdansatış ticarət və istehsalda elektron qaimə-fakturalar ilə rəsmiləşən dövriyyənin ümumi dövriyyədə xüsusi çəkisi 65 faizdən 78 faizə yüksəlib. Təkcə topdansatış ticarətdə elektron qaimə-fakturalar ilə rəsmiləşən dövriyyənin ümumi dövriyyədə xüsusi çəkisi 65 faizdən 82 faizə qalxıb. Ticarət sektorunda isə dövriyyələrin şəffaflaşması özünü ƏDV dövriyyəsinin yüksək artım dinamikasında göstərir. Belə ki, ƏDV dövriyyəsi topdansatış ticarətdə 25,2, pərakəndə ticarətdə 40 faiz artıb. Bu sahələrdə alış əqdlərinin sənədləşməsi səviyyəsi də yüksəlir. Pərakəndə ticarətdə əldə edilən elektron qaimə-fakturaların dəyərində 50,2, ictimai iaşədə 23,1 faiz artım qeydə alınıb”.

Diqqətə çatdırılmışdır ki, şəffaflaşma prosesi özünü bank sektorundan keçən dövriyyələrin yüksək artım dinamikasında və digər müsbət monetar effektlərin baş verməsində də göstərir: “Vergi ödəyicilərinin bank hesabları üzrə nağdlaşdırılan vəsaitlərinin məbləğinin azalması, habelə qeyri-dövlət sektorunun müəssisələrinin ƏDV depozit hesabında olan vəsaitlərinin qalığının 2,3 dəfə artması buna əyani sübutdur. Bu şəraitdə özəl sektor müəssisələrinin banklarda Azərbaycan manatı ilə olan cari hesablaşma hesablarında vəsaitlərin qalığı 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 49, cari ilin əvvəlindən isə 20 faiz artıb ki, bu da ölkədə nağdsız əməliyyatların genişlənməsinin və dövriyyələrin şəffaflaşmasının mühüm göstəricisidir”.

Gizli iqtisadiyyatın miqyasının azaldılmasına yönəlmiş vergi islahatları sırasında iqtisadiyyatda əmək münasibətlərinin şəffaflaşması mühüm yer tutur. Yığıncaqda bu barədə danışılarkən nəzərə çatdırılmışdır ki, cari ildən etibarən qeyri-neft sektorunun özəl bölməsi üzrə fiziki şəxslərin aylıq əməkhaqlarının 8 min manatadək olan hissəsinin 7 il müddətinə gəlir vergisindən azad edilməsi mühüm fiskal nəticələr verir: “Güzəştin tətbiqi nəticəsində cari ilin 6 ayı ərzində qeyri-dövlət bölməsində 77 mindən çox yeni əmək müqaviləsi qeydə alınıb ki, bu da həmin dövr ərzində 101 mindən çox artmış əmək müqavilələri sayının 75 faizini təşkil edir. Son məlumata görə, cari ilin 7 ayının yekunu üzrə ölkədə cəmi əmək müqavilələrinin sayında ilin əvvəlindən 109 minə, o cümlədən qeyri-dövlət bölməsində 84 minə qədər artım olub”.

***İqtisadiyyat şöbəsi***

# Saatlı ölkənin pambıq mərkəzinə çevrilir



Pambıqçılığı inkişaf etdirmək barədə Prezident İlham Əliyevin verdiyi tapşırıq və tövsiyələr, imzaladığı sərəncamlar Saatlı rayonunda da bu gəlirli sahəyə marağı xeyli artırmışdır. Bu gün Saatlı ölkədə ən çox pambıq istehsal edən rayonlardan biridir. Təkcə keçən il rayonumuzda 30.435 ton “ağ qızıl” istehsal olunmuşdur. Cari ildə isə məqsəd bu nailiyyəti daha da möhkəmləndirməkdir.

Mövcud torpaq sahələrindən səmərəli istifadə edərək pambıq istehsalının artırılması son illər Saatlı kəndlisinin güzəranını əsaslı şəkildə yaxşılaşdırmışdır. Rayonun Mircəlal kəndində yaşayıram. Yaşım 50-ni keçib. Kənd təsərrüfatı mütəxəssisiyəm. “Aqroaz” MMC-nin Saatlı filialında baş aqronom işləyirəm. Hər gün təsərrüfatlarda olur, pambıq tarlalarının becərilməsinə nəzarət edirəm. Torpaq mülkiyyətçiləri verdiyimiz məsləhət və tövsiyələrə ciddi əməl edir, aqrotexniki tədbirləri yüksək səviyyədə yerinə yetirirlər.

Mütəxəssislər pambıqçılıqda indiki mərhələni bartoplama dövrü adlandırırlar. Yaxşı qulluq edildiyindən kolların üzərindəki bar orqanları kifayət qədər çoxdur. Pambığın xəstəlik və zərərvericilərinə qarşı mübarizə tədbirləri də diqqət mərkəzindədir. Zərərvericilər müşahidə olunan sahələrdə operativ kimyəvi mübarizə tədbirləri həyata keçirilir. Rayon icra hakimiyyətində fəaliyyət göstərən qərargah isə pambıqçılıqda işlərin gedişini idarə edir, qarşıya çıxan problemlərin operativ aradan qaldırılması üçün tədbirlər görür.

Pambıqçı əməyinə dövlət səviyyəsində verilən yüksək dəyər təbii olaraq məni bu sahəyə bağlamışdır. Qürur hissi keçirirəm ki, rayonumuzun ölkənin pambıqçılıq mərkəzi kimi şöhrət qazanmasında mənim də əməyim var. Keçən il pambıq əkib-becərdiyim 40 hektar sahənin orta məhsuldarlığı 30 sentner olmuşdu. Bu il isə hər hektarın məhsuldarlığını azı 35 sentnerə çatdırmaq əzmindəyəm.

***Nizami MƏMMƏDOV,***
***Saatlı rayonu Mircəlal kəndi, fermer***

# BP şirkəti Şəfəq-Asiman üzrə ƏMSSTQ sənədini təqdim edib

Şəfəq-Asiman üzrə hasilatın pay bölgüsü haqqında sazişin operatoru olan BP şirkəti podratçı tərəflərin adından Ətraf Mühitə və Sosial-iqtisadi Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədini hazırlayaraq dərc edib.

Sənəddə Şəfəq-Asiman dəniz blokunda kəşfiyyat quyusunun qazılması işlərinin ətraf mühitə və sosial-iqtisadi sahəyə potensial təsirləri nəzərdən keçirilir və təsirin azaldılması üçün görülməli tədbirlər tövsiyə edilir. ƏMSSTQ prosesinin məqsədi nəzərdə tutulan işlərdən yarana biləcək hər hansı mənfi ekoloji və sosial-iqtisadi təsirləri müəyyənləşdirmək, minimuma endirmək və mümkün olduqda aradan qaldırmaqdır.

Hazırda Şəfəq-Asiman Kontrakt sahəsində suyun təxminən 624 metr dərinliyində bir kəşfiyyat quyusunun qazılması planlaşdırılır. Qazma işlərinin 2019-cu ilin dördüncü rübündə başlayacağı gözlənilir.

Xatırladaq ki, Şəfəq-Asiman Kontrakt sahəsi Xəzər dənizinin Azərbaycan sektorunda Bakıdan cənub-şərq istiqamətindən təxminən 125 km məsafədə, suyun dərinliyi təxminən 600-800 metr olan ərazidə yerləşir. Məhsuldar layın dərinliyi təxminən 7000 metrdir.

# Yeni subsidiya qaydaları ilə bağlı təlimlərə başlanıb

Kənd Təsərrüfatı Nazirliyi məhsul istehsalçılarına subsidiyaların ödənilməsi üzrə yeni qaydaların tətbiq edilməsi ilə bağlı təlimlərə başlayıb. Aqrar Kredit və İnkişaf Agentliyinin təşkil etdiyi təlimlərdə 60 rayonun Dövlət Aqrar İnkişaf mərkəzlərinin (DAİM) nümayəndələri və nazirliyin müvafiq şöbələrinin əməkdaşları iştirak edirlər.

9 gün keçiriləcək təlimlərə 200 mütəxəssis qatılacaq. “Təlimçilərin təlimi” kimi hazırlanan bu mütəxəssislər həm öz çalışdıqları, həm də fermerlərə subsidiyaların verilməsi ilə əlaqəli olan digər qurumların əməkdaşlarının yeni mexanizmlə bağlı məlumatlandırılmasını təmin edəcəklər.

“Təlimləri keçirməkdə əsas məqsədimiz fermerlərlə birbaşa ünsiyyətdə olan əməkdaşların subsidiyaların ödənilməsi üzrə yeni qaydalarla tam məlumatlılığını təmin etməkdir. Bizim hər bir əməkdaşımız yerlərdə fermerlərin yeni subsidiya qaydaları ilə bağlı bütün suallarını cavablandıra bilməlidir” deyə Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Mirzə Əliyev deyib.

Qeyd edək ki, Prezidentin 27 iyun 2019-cu il tarixli “Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” fərmanı ilə “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası” təsdiqlənib. Qaydaya görə, 2020-ci il yanvarın 1-dən etibarən fermerlərə subsidiyaların ödənilməsi üçün sənədlər elektron sistem üzərindən yığılacaq, subsidiyaların maneəsiz, kənar müdaxilələr olmadan və sürətli verilməsi təmin ediləcək, təchizatçı və tədarükçülərin fermerlərlə tərəfdaşlığı şəffaflaşmış şəkildə aparılacaq. Yeni mexanizmlə fermerlərə subsidiyaların verilməsini, DAİM-lərin bu sahədə fəaliyyətinin təşkilini və əlaqələndirilməsini Aqrar Kredit və İnkişaf Agentliyini həyata keçirir.

# Elektron hərrac investorlara nə verir



Öncədən qeyd edək ki, özəlləşmə sahəsində tətbiq edilən bütün yeniliklər, o cümlədən elektron hərrac biznes mühitinə qoşulan investorların sayını artırır.

Ölkəmizdə özəlləşmə sahəsində prosedurların sadələşdirilməsi, hərracların elektron müstəviyə keçməsi, yəni bu sahədə onlayn xidmətlərin təşkili, perspektivli müəssisələrin özəlləşməyə çıxarılması xarici investorların da cəlb edilməsinə geniş imkanlar yaradır.

Bu gün Azərbaycanda təqdim olunan 41 elektron xidmətdən 10-u özəlləşmə sahəsinə aiddir. İndi hərraclarda elektron qaydada qeydiyyatdan keçmək, iştirakçı statusu qazanmaq üçün sifariş vermək, hətta qeydiyyatdan keçmədən hərracları izləmək mümkündür.

Bugünəcən ümumilikdə hərraclar vasitəsilə dövlət əmlaklarının özəlləşdirilməsi ilə bağlı edilən sifarişlərin 310-a yaxını elektron şəkildə həyata keçirilib. Cari ilin 6 ayı ərzində isə bu rəqəm 75-ə yaxındır. Olduğu məkanı dəyişmədən, real vaxt rejimində 40-a yaxın vətəndaş hərraca internet vasitəsilə onlayn rejimdə qatılıb. Özəlləşmə ilə əlaqədar keçirilən hərracların elektron müstəviyə keçirilməsi investorların fəallığını artırmaqla prosesi rəqabətli edib. O üzdən hərracların 190-a yaxını rəqabətli şəkildə baş tutub. Bunun 62-si isə cari ilin 6 ayı ərzində reallaşıb.

Hərraclara çıxarılan dövlət əmlakları barədə ictimai məlumatlandırma Əmlak Məsələləri Dövlət Komitəsinin elektron resursları vasitəsilə də aparılır. Özəlləşdirməyə çıxarılan dövlət əmlakları barədə ətraflı məlumat almaq və hərracda iştirak etmək üçün komitənin rəsmi saytı və özəlləşdirmə portalı mövcuddur. Özəlləşdirməni sürətləndirməyə, şəffaflığı və rahatlığı artırmağa yönələn özəlləşdirmə portalına ilin 6 ayı ərzində 400 minə yaxın baxış olub. Ümumilikdə isə bu rəqəm 2,4 milyonu ötüb.

# Beynəlxalq aləm

## Yeni Zelandiya NATO-nun İraqa dair təklifini rədd etdi



Yeni Zelandiya hökuməti İraqa dair öhdəliklərini yerinə yetirdiyini və bu ölkənin dəstəklənib bərpası üzrə NATO-nun yeni missiyasına qatılmaqdan imtina etdiyini bildirmişdir. Bu barədə yerli RNZ radiostansiyası xəbər verir.

Ada dövlətinin müdafiə naziri Ron Mark qeyd etmişdir ki, Yeni Zelandiyanın planetin digər regionlarına dair öhdəlikləri var. O əlavə etmişdir ki, "biz ənənəvi maraq zonalarına - Sakit okean regionuna və Cənub-Şərqi Asiyaya xüsusi diqqət yetiririk".

NATO-nun baş katibi Yens Stoltenberq son vaxtlar iki dəfə, o cümlədən Yeni Zelandiyaya son səfərinin gedişində bu ölkənin İraqda hərbi mövcudluğunu qoruyub saxlamağın zəruriliyini dilə gətirmişdi.

Yeni Zelandiyanın hərbi təlimatçıları 2015-ci ildən bəri İraqda olmuş və 44 mindən çox iraqlı hərbçinin hazırlanmasında iştirak etmişlər.

## Kabildə partlayış: 95 nəfər yaralandı



Dünən səhər Əfqanıstanın paytaxtı Kabilin qərb hissəsində güclü partlayış törədilmiş, nəticədə 95 nəfər yaralanmışdır. Bu barədə 1TV telekanalı səhiyyə orqanlarına istinadən xəbər verir.

Daxili İşlər Nazirliyinin məlumatına görə, partlayıcı maddələr yüklənmiş avtomobil havaya uçmuşdur. Cinayətkarların hədəfi polis şöbəsi olmuşdur.

"Taliban" radikal hərəkatı terror aktına görə məsuliyyəti üzərinə götürmüşdür. Hərəkatdan bildirmişlər ki, partlayışın hədəfi polis və hərbçilər idi.

## ABŞ 38 ölkə ilə vizasız rejimə məhdudiyyətlər qoydu



ABŞ dünyanın 38 ölkəsi ilə vizasız rejimə məhdudiyyətlər tətbiq etmişdir. Birləşmiş Ştatların Gömrük-Sərhəd Xidmətinin internet saytı xəbər verir ki, 38 ölkənin vətəndaşları üçün vizasız rejimə edilmiş dəyişikliklərə görə, 1 mart 2011-ci ildən bəri Şimali Koreya, İran, İraq, Sudan, Suriya, Liviya, Somali və Yəmənə səfər etmiş şəxslər bundan sonra Amerika vizası almalı olacaqlar.

Xatırladaq ki, vizasız rejim 38 ölkənin vətəndaşlarının 90 günədək ABŞ-da qalmasına imkan verir. Həmin ölkələr Andorra, Avstriya, Avstraliya, Belçika, Bruney, Çili, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Fransa, Almaniya, Yunanıstan, Macarıstan, İslandiya, İrlandiya, İtaliya, Yaponiya, Latviya, Lixtenşteyn, Litva, Lüksemburq, Malta, Monako, Niderland, Yeni Zelandiya, Norveç, Portuqaliya, San-Marino, Sinqapur, Slovakiya, Sloveniya, Cənubi Koreya, İspaniya, İsveç, İsveçrə, Tayvan və Böyük Britaniyadır.

## İtaliya məhkəməsi hakim partiyanın 49 milyon avrosunu müsadirə etdi



İtaliya Ali Kassasiya Məhkəməsi hakim "Liqa" partiyasının sabiq rəhbərliyinin iri miqyasda maliyyə dələduzluğu işi barədə yekun qərar qəbul etmişdir. Yerli KİV xəbər verir ki, məhkəmə partiya vəsaitlərindən 49 milyon avronu dövlətin xeyrinə müsadirə etməyi qərarlaşdırmışdır.

Eyni zamanda məhkəmə işdə adı keçən iki əsas şəxsi - "Liqa"nın təsisçisi və keçmiş lideri, senator Umberto Bossini və partiyanın sabiq xəzinədarı Françesko Belsitonu cinayət məsuliyyətindən azad etmişdir. Belə bir qərar mühakimə müddətinin bitməsi ilə əlaqədar qəbul olunmuşdur. Bununla belə, Belsito barədə maliyyə vəsaitinin qanunsuz olaraq mənimsənilməsi ittihamı qüvvədə qalır. Onun işi baxılmaq üçün Genuya Apelyasiya Məhkəməsinə göndərilmişdir.

Xatırladaq ki, Bossinin yaxın ətrafının iri məbləğdə pul vəsaitini mənimsəməsi 2011-ci ildə üzə çıxmışdır. Söhbət irimiqyaslı dələduzluqdan və 2008-2010-cu illərdə siyasi partiyaların maliyyələşdirilməsi üçün dövlət fondlarından ayrılmış 49 milyon avronun faktiki olaraq oğurlanmasından gedirdi. Aydın olmuşdu ki, Bossinin ailə üzvləri və yaxın adamları bu vəsaitdən şəxsi məqsədləri üçün fəal istifadə etmiş, pulun bir hissəsi xaricə çıxarılmışdır.

## Qrenlandiya 12,5 milyard ton buz itirib



Qrenlandiyada buzlar fəlakətli şəkildə əriyir. Cari ayın əvvəlindən bəri adada 12,5 milyard ton buz ərimişdir. Alimlər iddia edirlər ki, bu həcmdə əriyən buzla Florida ştatını batırmaq olar.

Mütəxəssislər buzların sürətlə əriməsini 1950-ci ildə tədqiqatlar başlayandan bəri ilk dəfə müşahidə edirlər. Buz örtüyünün səviyyəsi 1 millimetr aşağı düşmüşdür. Həmçinin alimlər aşkarlamışlar ki, bu il artıq 248 milyard ton buz ərimişdir. Bu göstərici 2011-ci il rekorduna yaxındır. O vaxt il ərzində 250 milyard ton buz örtüyü ərimişdir.

Buzların ərimasinə səbəb kimi Avropada isti hava göstərilir. Qitədə havanın qızması Qrenlandiyada temperaturu 15-30 dərəcə qaldırmışdır. Əriyən buzun günəş şüalarını əks etdirməməsi ərimə prosesini daha da gücləndirmişdir.


### BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 15.07.2019-cu il tarixdə keçirilmiş "B-3" stansiyası ərazisində yerləşən su anbarında nasosun yığılması və həmin su anbarından stansiyaya yanğın əleyhinə su xəttinin təchizatı işlərinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "SMT İnşaat" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 06.08.2019-cu il tarixdə ƏDV daxil 146 865,40 manat (yüz qırx altı min səkkiz yüz altmış beş manat 40 qəpik) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*


## Bəzi bölgələrdə yağış yağacaq, dolu düşəcək

Azərbaycanda bugünə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, bəzi yerlərdə yağış yağacağı gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 22-25°, gündüz 27-29° isti, Bakıda gecə 23-25°, gündüz 27-29° isti olacaq. Atmosfer təzyiqi norma daxilində - 764 millimetr civə sütunu, nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Abşeron çimərliklərində mülayim şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Dəniz suyunun temperaturunun şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh və Zuğulbada 23-24°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil və Şıxda 24-25° isti olacağı gözlənilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, avqustun 8-9-da Abşeron yarımadasında mülayim küləklərin üstünlüyü və komfort temperatur şəraiti gözlənilir ki, bu da meteohəssas insanlar üçün əlverişlidir.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin bəzi şimal və şərq rayonlarında gecə və axşam şimşək çaxacağı, yağış yağacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi gözlənilir. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 30-35° isti, dağlarda gecə 10-15°, gündüz 15-20° isti olacağı ehtimal edilir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-22°, gündüz 33-38° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 15-20° isti olacağı gözlənilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 30-35° isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 25-30° isti, dağlarda gecə 8-13°, gündüz 14-18° isti olacağı proqnozlaşdırılır.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 30-35° isti olacağı bildirilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-23°, gündüz 28-32° isti, dağlarda gecə 13-18°, gündüz 19-23° isti olacağı ehtimal edilir.


### Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti digər maşın və avadanlıqların satın alınması üçün keçirilən *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

**LOT 1 - Digər maşın və avadanlıqların satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

İştirak haqqı: 500 (beş yüz) manat
Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**H/h: AZ18CTRE00000000000004788202**
**SWIFT CTREAZ22**
Büdcə gəlirlərinin təsnifat kodu - 142340
Büdcə səviyyəsinin kodu - 7
İstirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 04.09.2019-cu il saat 17:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 11.09.2019-cu il saat saat 15:00-a qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri 11.09.2019-cu il saat 15:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

*Tender komissiyası*

### BİLDİRİŞ

"Azərişıq" ASC tərəfindən 27.06.2019-cu il tarixdə keçirilmiş Abşeron rayonu ərazisində torpaq sahələrinin suvarma sisteminin xarici elektrik təchizatı işlərinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "Tikinti Təmir RR" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 02.08.2019-cu il tarixdə ƏDV daxil **1 549 306,76 (bir milyon beş yüz qırx doqquz min üç yüz altı manat 76 qəpik) manat** məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

### BİLDİRİŞ

QALA-STB Açıq Səhmdar Cəmiyyəti tərəfindən Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-1.2 maddəsinə uyğun olaraq 10 sentyabr 2019-cu il saat 12:00-da səhmdarların növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi aşağıdakılardan ibarətdir:
1. Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyəti barədə müzakirələr;
2. Cəmiyyətin vergi öhdəlikləri barədə müzakirələr;
3. İdarə Heyətinin sədrinin seçilməsi;
4. Cəmiyyətin balansında olan əsas vəsaitlərin istismara yararlılıq vəziyyətinə dair müzakirələr;
5. Cəmiyyətin müflis elan olunmasına dair müzakirələr;
6. Digər məsələlər.

**Yığıncağın keçirildiyi ünvan: Bakı şəhəri, Kövkəb Səfərəliyeva, 16 H**
**Əlaqə: Xaliq Nuriyev (+99450) 255-84-94**
**Qeyd: Yığıncağa şəxsiyyət vəsiqəsi ilə gəlmək xahiş olunur**

*İdarə Heyəti*

### BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 10.09.2019-cu il tarixdə keçirilməsi nəzərdə tutulan "Bakı Metropoliteni" QSC üçün müxtəlif növ mühafizə vasitələri və geyim formalarının satın alınması üzrə açıq tender prosedurunun davamından imtina edilir.

*Tender komissiyası*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

*Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Zəfər Səfəralı oğlu Məmmədova məxsus Bakı şəhəri, Binəqədi rayonu, Novxanı kəndi 356 saylı bağ evinə verilmiş Çıxarış itdiyi üçün etibarsız sayılır.*


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Sabunçu Rayon Məhkəməsinin sədri İlqar Abbasova qayınanası
**SƏRİYYƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırova anası
**NURİDƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ombudsman Elmira Süleymanova Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırova anası
**NURİDƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ombudsman Elmira Süleymanova Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədova əzizi
**ELNUR NUHOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Bakı Şəhər Baş Polis İdarəsinin rəisi, polis general-mayoru Mirqafar Seyidova əzizi
**RAFİQ MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Texniki Universitetinin rektoru, professor V.Vəliyev və universitetin professor-müəllim heyəti Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru İqbal Babayevə anası
**ARASTA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Göygöl rayonundan Arif Seyidov Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırova anası
**NURİDƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göygöl rayonundan Arif Seyidov Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədova əzizi
**ELNUR NUHOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırova anası
**NURİDƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədova əzizi
**ELNUR NUHOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İsmayıllıdan Mirdaməd Sadıqov Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırova anası
**NURİDƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərbaycan" nəşriyyatının kollektivi Azərbaycan Dünyası Beynəlxalq Əlaqələr Mərkəzinin prezidenti Yasif Nəsirliyə həyat yoldaşı
**ÜZAFƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərbaycan" nəşriyyatının kollektivi iş yoldaşları Vidadi Bayramova atası
**TOFİQ BAYRAMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9002
Sifariş 2608
Qiyməti 40 qəpik